QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 173 (5404) 26 **sentyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev Neftçala və Salyan rayonlarına səfər edib*




Səh 3

12

Sarkisyanın özünü aldadan siyasəti



9

"TURAZ Qartalı-2017" hərbi təlimləri Ermənistanda qorxu və təşviş yaradıb



16

Patrik Riçard: Azərbaycanda qadın voleybolu sürətlə inkişaf edir



# Azərbaycanın qadın voleybolçuları Almaniya millisinə qalib gələrək Avropa çempionatının dörddəbir finalına yüksəliblər

## *Prezident İlham Əliyev milli komandamızın oyununa baxıb*

***Sentyabrın 25-də qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin "A" qrupunda yer alan Azərbaycan milli komandası Almaniya yığması üzərində inamlı qələbə qazanaraq dörddəbir finala yüksəlib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli komandamızın oyununa baxıb.***



Milli Gimnastika Arenasında keçirilən qarşılaşmada Azərbaycan voleybolçuları 3:1 hesabı ilə qalib gəliblər.

Gərgin idman mübarizəsi şəraitində keçən birinci setdə Almaniya millisi 25:19 hesabı ilə üstün olub. Lakin ikinci setdə təşəbbüsə yiyələnən Azərbaycan voleybolçuları qələbə qazanaraq (25:19) ümumi hesabı bərabərləşdiriblər - 1:1. Qarşılaşmanın üçüncü setində üstün oyun nümayiş etdirən voleybolçularımız 25:18 hesabı ilə qalib gəliblər. Bu qələbə sayəsində milli komandamız ümumi hesabda irəli çıxıb - 2:1. Matçın dördüncü seti də yüksək əzmkarlıq nümayiş etdirən Azərbaycan voleybolçularının qələbəsi ilə başa çatıb - 25:18.




Beləliklə, "A" qrupunda keçirdiyi üç görüşün hamısında parlaq qələbə qazanaraq ən yüksək nəticə göstərən Azərbaycan voleybolçuları dörddəbir finala birbaşa vəsiqəni təmin ediblər. Milli komandamız əvvəlki görüşlərdə Macarıstan və Polşa yığmalarına 3:0 hesabı ilə qalib gəlib. "A" qrupundan Polşa və Almaniya yığma komandaları mübarizəni pley-offda davam etdirəcəklər. Dörddəbir finala birbaşa vəsiqənin digər sahibləri isə İtaliya, Rusiya və Serbiya milli komandalarıdır.



## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 dekabr tarixli 499 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 189 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Neftçala şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Sinqapur Prezidenti Həlimə Yaquba təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli xanım Prezident, Sinqapur Respublikasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Sinqapur arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Sinqapur xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm".

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Azərbaycan Prezidenti İlham Əliyev Neftçala və Salyan rayonlarına səfər edib*

***Sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Neftçala rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət etdi. Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə Prezident İlham Əliyevə məlumat verdi.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Neftçala Sənaye Məhəlləsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Şahin Mustafayev görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.











Bildirildi ki, dövlətimizin başçısının 2014-cü ildə Neftçalaya səfəri zamanı verdiyi tapşırığa və 2015-ci ilin fevralında imzaladığı müvafiq Sərəncama əsasən sənaye məhəlləsində yüksək standartlara cavab verən 7 istehsal sahəsi, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib. Hazırda Neftçala Sənaye Məhəlləsində 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Sənaye Məhəlləsinin iştirakçıları tərəfindən istehsal sahələrinin yaradılmasına 45,3 milyon manat investisiya yatırılıb. Bununla belə, iş adamlarının sənaye məhəlləsinə cəlb edilməsi istiqamətində tədbirlər davam etdirilir və tələbata uyğun olaraq məhəllənin ərazisi genişləndiriləcək. Sənaye Məhəlləsində ümumilikdə 474 daimi iş yeri yaradılıb. Prezident İlham Əliyev Sənaye Məhəlləsinin rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısı Neftçala Sənaye Məhəlləsində istehsal korpusları və burada fəaliyyət göstərən müəssisələrlə yaxından tanış oldu.

Bildirildi ki, məhəllədəki ən böyük müəssisələrdən biri "Azərmaş" ASC - "İran Khodro" birgə avtomobil zavodudur. Azərbaycan-İran birgə müəssisəsinin illik istehsal gücü 10 min avtomobildir. Müəssisədə "İran Khodro" şirkəti 25 faizlik paya malikdir. Müasir texnologiyalar, avadanlıq və mexanizmlər əsasında qurulacaq zavodda "Runna", "Samand", "Soren", "Dena", "Peugeot-206", "Peugeot-207", "Renault-Tondar", "Renault-Pickup" kimi avtomobil modelləri istehsal ediləcək. Qeyd edək ki, artıq bu model avtomobillərdən yerli bazarda 4 min ədəd satılıb. İldə 2 min avtomobilin ixracı planlaşdırılır. Ümumi investisiya dəyəri 24 milyon manat olan müəssisəyə verilən İnvestisiya Təşviqi Sənədi hesabına təqribən 2 milyon manata qənaət edilib. Müəssisədə 300 nəfər işlə təmin ediləcək. Neftçala Sənaye Məhəlləsində avtomobil istehsalı zavodunun qurulması köməkçi istehsal və xidmət sahələrinin inkişafı üçün də əlverişli imkan yaradır. Zavodun 2017-ci ilin dekabrında istifadəyə verilməsi planlaşdırılır. Prezident İlham Əliyev Neftçala balıq yemi istehsalı müəssisəsinin fəaliyyəti ilə də tanış oldu.

İllik istehsal gücü 25 min ton olan müəssisədə balıq yemi ilə yanaşı, gələcəkdə mal-qara üçün və digər növ yemlərin istehsalı da nəzərdə tutulur. Müəssisənin yaradılmasına 12 milyon manat investisiya yönəldilib. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müəssisəyə 5,9 milyon manat məbləğində güzəştli kredit ayrılıb. Bundan başqa, müəssisəyə İnvestisiya Təşviqi Sənədi verilib ki, bu, sahibkara 1,2 milyon manat vəsaitə qənaət etmək imkanı yaradır. Müəssisədə 26 nəfər işlə təmin ediləcək. Dövlətimizin başçısı müəssisəni işə saldı.

Ardı Səh. 4

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Azərbaycan Prezidenti İlham Əliyev Neftçala və Salyan rayonlarına səfər edib*

**Əvvəli Səh. 3**

İyirmi ildir fəaliyyət göstərən "Metak" MMC də Neftçala Sənaye Məhəlləsində öz müəssisəsini yaradıb. Müəssisədə plastik məmulatlar, o cümlədən kənd təsərrüfatı təyinatlı taralar istehsal ediləcək. İllik istehsal gücü 2 milyon tara olan müəssisəyə 1,35 milyon manat investisiya qoyulub. Müəssisəyə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 600 min manat güzəştli kredit verilib. "Metak" MMC-yə, həmçinin İnvestisiya Təşviqi Sənədi də təqdim edilib ki, bu, müəssisənin təqribən 35 min manata qənaət etməsinə imkan verir. Müəssisənin məhsulları daxili bazarda, xüsusilə kənd təsərrüfatında qablaşdırmaya olan tələbatın ödənilməsində əhəmiyyətli rol oynayacaq. Qeyd edək ki, ümumiyyətlə "Metak" şirkətinin bütün məhsulları Azərbaycanda istehsal olunur.









Dövlətimizin başçısı müəssisəni işə saldı. Prezident İlham Əliyev Sənaye Məhəlləsinin digər bir müəssisəsi - "Gilan PİVOT" MMC-nin fəaliyyəti ilə də tanış oldu. Müəssisədə müasir texnologiyalar əsasında dairəvi suvarma sistemləri istehsal ediləcək. Ümumi investisiya dəyəri 1 milyon manat olan müəssisənin illik istehsal gücü 60-80 suvarma sistemidir. Müəssisədə 15 nəfərin işlə təmin olunması planlaşdırılır. Müəssisə 2017-ci ilin noyabrında fəaliyyətə başlayacaq.

Dövlətimizin başçısı Neftçala Sənaye Məhəlləsində kiçik sahibkarlar üçün yaradılan emalatxana ilə də tanış oldu. Bu emalatxanada müxtəlif məmulatlar hazırlanacaq. Burada kiçik sahibkarlar üçün hər cür şərait yaradılıb və 10 nəfər daimi işlə təmin olunacaq.

Prezident İlham Əliyev "Toğrul-2008" MMC-nin müəssisəsində də oldu. Bildirildi ki, müəssisədə polietilen suvarma boruları istehsal edilir. 100 min manat investisiya hesabına yaradılan müəssisənin illik istehsal gücü 360 tondur. Hazır məhsul ətraf rayonlarda fermerlərin bu sahədə ehtiyaclarının ödənilməsinə yönəldilir.

Neftçala Sənaye Məhəlləsinin daha bir iştirakçısı "Azproduct" MMC-dir. Müasir texnologiyaların tətbiq edildiyi müəssisə balıq emalı və konservləşdirilməsi sahəsində fəaliyyət göstərəcək. İstehsal sahəsində ildə 7 milyon şərti banka konserv və 500 ton soyudulmuş təzə balıq istehsalı nəzərdə tutulur. 2017-ci ilin oktyabrında istifadəyə veriləcək müəssisəyə 1,7 milyon manat investisiya qoyulub. Əlavə dövlət dəstəyi olaraq müəssisəyə İnvestisiya Təşviqi Sənədi təqdim edilib. Bu, müəssisənin təqribən 290 min manata qənaət etməsinə imkan verib. İstehsal sahəsində 40 nəfər işlə təmin ediləcək.



Artıq "Azproduct" MMC ilə "Ərzaq Məhsullarının Tədarükü və Təchizatı" ASC arasında balıq konservlərinin satışına dair 2,2 milyon manat dəyərində müqavilə də imzalanıb.

Dövlətimizin başçısı "Sun Rise Production" MMC-nin Sənaye Məhəlləsində yaratdığı müəssisə ilə də tanış oldu. Müəssisədə kağız stəkanlar və hazır içkilər istehsal olunacaq. İstehsal sahəsinin yaradılmasına 619 min manat investisiya yönəldilib. Bundan başqa, müəssisəyə İnvestisiya Təşviqi Sənədi verilib ki, bu, təqribən 84 min manata qənaət etməyə imkan yaradır.

Prezident İlham Əliyev Sənaye Məhəlləsinin inzibati binasında da oldu. Bina toplantı və təlimlərin keçirilməsi üçün iclas otağından, müasir ofis sahələrindən, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və sənaye məhəlləsinin idarəedici təşkilatının istifadəsi üçün nəzərdə tutulan sahələrdən ibarətdir. Burada sahibkarlara ümumi mühasibatlıq, hüquqi məsləhətlər, sığorta, poçt, texniki kitabxana, "Startup"lar üçün ofis, yeməkxana və tibbi xidmətlər göstərilir. Sahibkarların fəaliyyətinə dəstək üçün Neftçala Sənaye Məhəlləsinin bütün ərazisi pulsuz internetlə təmin olunub.

**Ardı Səh. 5**

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev Neftçala və Salyan rayonlarına səfər edib*

**Əvvəli Səh. 4**

Prezident İlham Əliyev Neftçala Sənaye Məhəlləsi ilə tanışlıqdan sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev çıxışında qeyd edib ki, Neftçalada Sənaye Məhəlləsinin açılması gözəl hadisədir. Neftçala rayonunun inkişafında bu sənaye məhəlləsinin çox böyük rolu olacaq: "Burada artıq bir neçə müəssisə fəaliyyətə başlayıb, bir neçə müəssisənin fəaliyyəti yaxın aylarda təmin ediləcəkdir. Bir sözlə, bizim vaxtilə verdiyimiz qərar artıq həyatda öz əksini tapır. İki il əvvəl Neftçalada Sənaye Məhəlləsinin yaradılması ilə bağlı mənim tərəfimdən müvafiq Sərəncam imzalanmışdır. İki il ərzində yaradılan bu gözəl sənaye şəhərciyi artıq istifadəyə verilir. Bu, onu göstərir ki, bizim qəbul etdiyimiz bütün qərarlar həyatda tezliklə, qısa müddət ərzində və yüksək səviyyədə öz əksini tapır. Bu sənaye məhəlləsinin fəaliyyəti həm rayonun iqtisadiyyatına, həm ölkə iqtisadiyyatına çox böyük təkan verəcək. Bu sənaye məhəlləsinin yaradılması əslində bu istiqamətdə görülmüş işlərin yeni mərhələsinin başlanmasıdır. Çünki bu gün ölkəmizdə sənayeləşmə siyasəti uğurla aparılır, bizim iri sənaye mərkəzlərimizdə - xüsusilə Bakı, Sumqayıt və Gəncə şəhərlərində böyük sənaye müəssisələri yaradılır. İndi Mingəçevir şəhərində böyük sənaye zonası yaradılır və kiçik şəhərlərdə də belə layihələrin icrası çox əlamətdar hadisədir. Böyük şəhərlərdən sonra ilk sənaye zonası Neftçala rayonunda yaradılıb, yaxın vaxtlarda əlavə iki sənaye zonası Masallı və Hacıqabul rayonlarında fəaliyyətə başlayacaq.







Sənayeləşmə siyasəti uğurla aparılır. Biz bu zonaların yaradılması ilə iş adamlarına dövlət tərəfindən növbəti dəstək göstəririk. Bu zonanın yaradılması bizim təşəbbüsümüz olmuşdur. Azərbaycan dövləti bu təşəbbüslə çıxış edib və dövlət tərəfindən bu zonanın yaradılmasına 20 milyon manatdan çox vəsait ayrılıbdır. Bütün infrastruktur məsələləri həll olunub, modullar inşa edilib və özəl sektora burada fəaliyyətə başlamaq üçün kreditlər verilib. Özəl sektor da kreditlər hesabına və öz vəsaiti hesabına 45 milyon manat sərmayə qoyubdur. Yəni, bu, onu göstərir ki, burada dövlət-özəl sektor tərəfdaşlığı özünü göstərir. Çünki əgər biz bu təşəbbüslə çıxış etməsəydik, onu irəli sürməsəydik, bax, bu zona da heç vaxt yaranmazdı. İndi bu zona var və o, böyüyəcək. Bildiyimə görə, rayon sahibkarları tərəfindən maraq çox böyükdür. Burada istehsal olunan və olunacaq mallar idxalı əvəzləmək üçün bizə kömək göstərəcək. Çünki indi bizim əsas məqsədimiz yerli istehsalı daha da gücləndirmək, idxaldan asılılığı azaltmaqdır." Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də 110/35/6 kV-luq "Neftçala" yarımstansiyasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Baba Rzayev görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi. "Neftçala" yarımstansiyasında 40 MVA gücündə iki transformator quraşdırılıb, açıq və qapalı paylayıcı qurğular inşa edilib, bu qurğularda müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli avtomat rele mühafizə sistemi yaradılıb. Yarımstansiyada növbətçi işçi heyət üçün müvafiq olaraq mühafizə, texniki xidmət və idarəetmə otaqları inşa edilib, lazımi şərait yaradılıb. Yarımstansiyanın ərazisində geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb. Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Bildirildi ki, 2015-2017-ci illər ərzində Neftçala rayonu ərazisində 35/6 kV-luq yeni "Şəhər" yarımstansiyası tikilib. Eyni zamanda, 35 kV-luq "Xoşçobanlı" yarımstansiyasına əlavə transformatorlar quraşdırılıb. Bundan başqa, 35 kV-luq "Bankə", "Xıllı" və "Xoşçobanlı" yarımstansiyalarında da ciddi təmir işləri aparılıb. Eyni zamanda, 300-ə yaxın 10/6 kV-luq transformator məntəqəsi də təmir edilib. "Azərişıq" ASC yaradıldıqdan sonra ümumilikdə Neftçala rayonunda 43 kilometr 110 kV-luq, 7 kilometr 35 kV-luq, 45,5 kilometr 10/6 kV-luq izolyasiyalı naqillər xətti çəkilib. Ümumilikdə 5 kənddə və şəhər mərkəzində 0,4 kV-luq şəbəkələrdə tam kabelləşmə işləri aparılıb və bir neçə kənddə bu işlər hazırda da davam edir. Həmçinin Neftçala Elektrik Şəbəkəsinin yeni inzibati binası inşa edilib. Yeni binada əməkdaşların operativ fəaliyyəti üçün hər cür şərait yaradılıb. Burada abonentlərə xidmətin keyfiyyətinin artırılması, enerji satışı, qəza xidməti, müştəri xidmətləri üçün xüsusi otaqlar yaradılıb. Sonda xatirə şəkli çəkdirildi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Neftçala Mərkəzi Rayon Xəstəxanasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Son illərdə ölkəmizdə səhiyyə sahəsinin daha da təkmilləşdirilməsi, müasir tibb ocaqlarının inşası və mövcudlarının əsaslı bərpası geniş vüsət alıb. Neftçala Mərkəzi Rayon Xəstəxanasının binasının yenidən qurulması da bu prosesin ardıcıl xarakter aldığını təcəssüm etdirir. Bu səhiyyə ocağının yenidənqurmadan sonra istifadəyə verilməsi rayon sakinlərinin keyfiyyətli səhiyyə xidmətindən istifadəsinə kömək edəcək.

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına Mərkəzi Rayon Xəstəxanasında aparılan yenidənqurma işləri barədə məlumat verdi. Bildirildi ki, xəstəxananın binası 1989-cu ildə inşa olunub.

***Ardı Səh. 6***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

26 sentyabr 2017-ci il

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

*Azərbaycan Prezidenti İlham Əliyev Neftçala və Salyan rayonlarına səfər edib*



Əvvəli Səh. 5

Ümumi ərazisi 5 hektar olan Mərkəzi Rayon Xəstəxanasının yenidənqurma işlərinə 2013-cü ildə başlanılıb və 2017-ci ildə başa çatdırılıb. Xəstəxanada yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev əhaliyə tibbi xidmətin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

Prezident İlham Əliyev Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin Neftçala Mərkəzi Rayon Xəstəxanasındakı Mobil Diaqnostika Kompleksi ilə də tanış oldu.

Milli Onkologiya Mərkəzinin direktoru Cəmil Əliyev dövlətimizin başçısına məlumat verdi ki, 2007-ci ildən başlayaraq Mərkəzin həkimləri bölgələrə səfərlər edirlər. Tərkibi 14 nəfərdən ibarət həkim briqadasının səfərlərində məqsəd onkoloji xəstəliklərin erkən aşkarlanmasıdır. İndiyədək Mərkəzin əməkdaşları ölkənin 51 bölgəsində 50 minə yaxın insanı müayinədən keçiriblər. Mobil Diaqnostika Kompleksi müxtəlif kabinetlərdən və laboratoriyadan ibarətdir.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Kür çayından Neftçala magistral kanalı vasitəsilə Neftçala rayonunun əkin sahələrinə suvarma suyunun verilməsi mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 2004-2008-ci illər üzrə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına daxil edilən "Neftçala rayonu üzrə pambıqçılığın və taxılçılığın inkişaf etdirilməsi" tədbirinin icrasını təmin etmək məqsədilə "Meliorasiya və Su Təsərrüfatı" ASC tərəfindən "Neftçala magistral kanalının nasos stansiyası ilə birlikdə tikintisi" layihəsinin icrasına 2006-cı ildə başlanılıb. İşçi layihədə rayonun 13 min 400 hektar əkin sahəsinin su təminatını yaxşılaşdırmaq üçün Kür çayı üzərində saniyədə 14,4 kubmetr suyun verilməsi üçün 6 və 2 aqreqatlı 2 üzən nasos stansiyası, uzunluğu 7020 metr və diametri 1220 millimetr olan dördxətli təzyiqli metal boru kəməri, təzyiqli hovuz və uzunluğu 25 kilometrə yaxın olan dəmir-beton üzlüklü kanalın qurğularla birlikdə tikintisi nəzərdə tutulub. Neftçala rayonunda iri kənd təsərrüfatı müəssisələrinin və aqroparkların yaradılması ilə əlaqədar 5805 hektar azməhsuldar qış otlaq, eləcə də 1000 hektar dəmyə torpaq sahələrinə suvarma suyunun çatdırılması layihəyə daxil edilib. Bu halda layihə zonasına daxil olan torpaq sahəsi 20 min 205 hektar təşkil edir. Ayrılan vəsait hesabına Kür çayında 6 aqreqatlı üzən nasos stansiyası, onun elektrik təchizatı məqsədilə 29,1 kilometr uzunluğunda 35 kV-luq elektrik hava xətti, hərəsi 6300 KVA gücündə olmaqla 2 transformator yarımstansiyası quraşdırılıb. Nasos stansiyaları quraşdırılan ərazidə Kür çayının sahilinin mühafizəsi məqsədilə uzunluğu 204 metr olan ikicərgəli yığma dəmir-beton və monolit dəmir-beton konstruksiyalı svaylarla bərkidilmə işləri yerinə yetirilib. Prezident İlham Əliyev əkin sahələrinə suvarma suyunun verilməsini bildirən düyməni basdı. Sonda xatirə şəkli çəkdirildi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Neftçala rayonu ərazisində fermer Əlihüseyn Hacıyevin pambıq sahəsi ilə tanış olub.

Sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Salyan rayonuna səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Salyan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu. Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Salyanın sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, kənd təsərrüfatı sahəsində istehsal müəssisələri yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonuna səfəri çərçivəsində 110/35/10 kV-luq "Qaraqaşlı" yarımstansiyasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə elektroenergetika sahəsində mühüm işlər görülüb. "Qaraqaşlı" yarımstansiyasının tikilməsi Salyan rayonunda 31 min abonentin elektrik təchizatının yaxşılaşdırılmasına, eləcə də bölgədə mövcud olan güc qıtlığının aradan qaldırılmasına səbəb olub. İstehlakçıların fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi üçün yeni yarımstansiyanın tikilməsi ilə yanaşı, istismar müddətini başa vurmuş elektrik şəbəkələrinin yenidən qurulması, həmçinin yüksək və aşağı gərginlikli yeni hava xətlərinin çəkilməsi həyata keçirilib. Yarımstansiyanın qidalandırılması məqsədilə 110 kV-luq "Birinci Neftçala" hava xəttinin giriş-çıxış və 110 kV-luq dairəvi elektrik təchizat sxeminin yaradılması üçün 110 və 220 kV-luq qovşaq yarımstansiyaları əlaqələndirilib. Salyan rayonunun su təsərrüfatı üçün tələb olunan 11,5 MVA gücündə 35 kV-luq iki yarımstansiya da məhz bu yarımstansiyadan qidalandırılacaq. Odur ki, "İşıqlı Azərbaycan" layihəsinə uyğun olaraq tikilən "Qaraqaşlı" yarımstansiyası rayonun elektrik enerjisi təchizatında xüsusi önəm daşıyır.

"Azərişıq" ASC-nin sədri Baba Rzayev dövlətimizin başçısına yeni yarımstansiya barədə məlumat verdi. Bildirildi ki, yeni yarımstansiya Salyan rayonunun böyük hissəsini, xüsusən də dövlət əhəmiyyətli obyektləri - Heydər Əliyev Mərkəzi, Heydər Əliyev Parkı, Salyan Rayon İcra Hakimiyyəti, Mərkəzi Xəstəxana, çoxlu sayda sənaye, təhsil, tibb və məişət təyinatlı obyektləri elektrik enerjisi ilə təmin edir. Bundan əlavə, qeyri-neft sektorunun - kənd təsərrüfatı, sahibkarlıq, sənaye sahələri və digər infrastruktur layihələri üzrə inşa ediləcək obyektlərin elektrik enerjisi ilə təminatı bu yarımstansiyadan həyata keçiriləcək. Dövlətimizin başçısı yarımstansiyanı işə saldı. Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də 1200 şagird yerlik Salyan şəhər 2 saylı tam orta məktəbin yeni binasının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Təhsildəki nailiyyətlər hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca məqsəd seçib. Bununla da neft gəlirləri Azərbaycanda həm də təhsilin və elmin inkişafına yönəlib.

Ardı Səh. 7

# Bölgələrin inkişafı dövlətin diqqət mərkəzindədir

## *Azərbaycan Prezidenti İlham Əliyev Neftçala və Salyan rayonlarına səfər edib*

**Əvvəli Səh. 6**

Birləşmiş Millətlər Təşkilatı da XXI əsri “Təhsil əsri” elan edib. Odur ki, yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu indiki qədər heç vaxt aktual olmayıb.

Dövlətimizin başçısına Salyan şəhər 2 saylı tam orta məktəbdə yaradılan şəraitlə bağlı məlumat verildi. Bildirildi ki, 1954-cü ildən ümumtəhsil məktəbi kimi fəaliyyət göstərən Salyan şəhər 2 saylı tam orta məktəb 1937-ci ildə tikilmiş ikimərtəbəli uyğunlaşdırılmış binada yerləşirdi. 2003-cü ilədək məktəb binası 26 sinif otağından ibarət idi və tədris iki növbədə aparılırdı. 2003-cü ildə əlavə 14 sinif otağı tikildi və həmin ildən etibarən tədris birnövbəli sistemə keçdi. 2016-2017-ci tədris ilində məktəbin 556 şagirdi müvəqqəti olaraq 3 saylı tam orta məktəbin binasında yerləşdirilmişdi. Dövlətimizin başçısının ötən il imzaladığı Sərəncamla məktəb üçün yeni bina tikildi və bu, bir çox problemləri aradan qaldırdı. İlk növbədə, digər təhsil ocaqlarında yerləşdirilən şagirdlər öz doğma məktəblərinə qayıtdılar. İndi onlar müasir, zəruri avadanlıqla təchiz olunmuş məktəbdə təhsillərini davam etdirirlər.

Üç mərtəbədən ibarət yeni məktəb binasında 48 sinif otağı, 6 laboratoriya, əmək təlimi otaqları, tibb məntəqəsi, kitabxana, 380 yerlik akt zalı, idman və atıcılıq zalları fəaliyyət göstərir. Prezident İlham Əliyev məktəbin sinif otaqlarında, laboratoriyalarında, idman və atıcılıq zallarında yaradılan şəraitlə tanış oldu. Atıcılıq otağında şagirdlər pnevmatik silahdan hədəfə atəş açmaq məharətlərini nümayiş etdirdilər. Dövlətimizin başçısı məktəbin müəllim və şagird kollektivinə uğurlar arzuladı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyana səfəri çərçivəsində Bayraq Muzeyinin açılışında iştirak edib. Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün oldu. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli bayrağımız ilk dəfə Ulu Öndər tərəfindən Naxçıvanda qaldırıldı. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə qürurla dalğalanır və hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, paytaxtdan sonra əksər bölgələrimizdə də üçrəngli bayrağımızın şərəfinə muzeylər yaradılır, xüsusi layihələr həyata keçirilir.




AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısına burada görülən işlərlə bağlı məlumat verildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonunun Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, “Azəravtoyol” ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, ümumi uzunluğu 30 kilometrdən çox olan yolun 17,4 kilometri Prezident İlham Əliyevin 2014-cü və 2015-ci illərdə imzaladığı sərəncamlara əsasən ayrılan vəsait hesabına yerli icra hakimiyyəti tərəfindən yenidən qurulub. Yolun qalan 12,8 kilometrinin yenidən qurulması isə dövlətimizin başçısının ötən il imzaladığı Sərəncamla “Azəravtoyol” ASC-yə həvalə edilib.



Torpaq və çınqıl örtüklü olduğundan vətəndaşların gediş-gəlişinə maneələr yaradan avtomobil yolu iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Zəruri olan yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılıb, kipləşdirilmə işləri görülüb, yola asfalt-beton örtüyü döşənib. Yenidənqurma işləri çərçivəsində zəruri olan yerlərdə suötürücü boruların tikintisi işləri aparılıb. Avtonəqliyyat vasitələrinin hərəkətinin normal təşkili üçün zəruri olan yerlərdə yol nişanları və məlumatverici lövhə quraşdırılıb, yola nişanlama xətləri çəkilib. Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Azərbaycan Prezidenti görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, yol infrastrukturu ölkəmizdə prioritet məsələlərdən biridir. Salyan sakinləri yaxşı bilirlər ki, Bakı-Salyan yolu əsaslı şəkildə tikilib, indi Bakı-Salyan-Astara yolunun tikintisi uğurla gedir:

“Bir sözlə, Salyan rayonunun digər bölgələrlə, xüsusilə Bakı şəhəri ilə yol əlaqəsi böyük dərəcədə yaxşılaşıb. Ölkəmizdə, ümumiyyətlə, bu sahəyə çox böyük diqqət göstərilir. Bu il, - bu layihəyə şərti ad vermişik, - “40 yol” layihəsi icra edilir. Əslində bu, yüzlərlə kəndi birləşdirir. Gələn il artıq yeni yolların salınması ilə bağlı təkliflər hazırlanır. Hesab edirəm ki, gələn il bu işlər daha da böyük həcmdə görüləcək. Çünki yol rahatlıqdır, inkişafdır. Yol olan yerdə inkişaf da var. Yol həm sosialyönümlü layihədir, həm də iqtisadi layihədir. Çünki yol olmayan yerdə kənd təsərrüfatı ilə məşğul olmaq da çətin olur. Fermerlər öz məhsullarını bazarlara çıxarmaqda çətinlik çəkirlər. Ona görə də yol layihələri bundan sonra da uğurla icra ediləcək. Biz demək olar ki, bütün magistral yol layihələrimizi artıq icra etmişik. Şəhərlərarası yol layihələrinin böyük hissəsi icra edilib. İndi kəndlərarası yolların tikintisi gündəlikdə duran vacib məsələlərdəndir.






Salyan rayonunun inkişafı ilə bağlı kompleks tədbirlər görülür, sosial infrastruktur yaxşılaşır. Bu gün mən 2 saylı məktəbin yeni binasının açılışında iştirak etmişəm. Bu da çox böyük təhsil ocağıdır. Şəhərin ən böyük məktəbidir və bu məktəbin böyük ənənəsi var. Onu biz yenidən tikdik.

Kənd təsərrüfatı ilə bağlı önəmli addımlar atılır. Salyanda pambıqçılığın bərpası istiqamətində işlər yaxşı gedir. Mənə verilən məlumata görə, 7 min hektarda pambıq əkilib, bu da məşğulluğu təmin edir. Minlərlə insan indi bu sahədə işləyir, pul qazanır. Qazlaşdırma Salyan rayonunda 80 faizdən çoxdur. Bu da yaxşı göstəricidir. Növbəti illərdə əlbəttə ki, daha da artacaq. Bu gün biz elektrik yarımstansiyasının açılışını etdik və elektrik enerjisi ilə təminat daha da yaxşılaşacaq. Keçən il biz içməli su layihəsinin birinci mərhələsini mənim iştirakımla istismara verdik və növbəti dövrdə bu layihənin tam tamamlanması nəzərdə tutulur. Bir sözlə, Salyan rayonunun həm sosial, həm iqtisadi inkişafı diqqət mərkəzindədir. Nəzərə alsaq ki, infrastruktur layihələrinin bir çoxu icra edilib, növbəti illərdə qalan layihələr də icra ediləcək.”

Azərbaycan Prezidenti İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunun duzsuzlaşdırılması kompleksinin fəaliyyəti ilə tanış olub. AZƏRTAC xəbər verir ki, ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov kompleks barədə dövlətimizin başçısına məlumat verdi. Xəzər dənizinin suyunun duzsuzlaşdırılması kompleksi 2013-cü ildə istifadəyə verilib. 2016-cı ildə kompleksdə əlavə tikinti işləri aparılmadan ikinci xətt quraşdırılıb. Bildirildi ki, müəssisədə istehsal olunan su içməli su göstəricilərinə tam uyğundur. Hazırda istehsal olunan suyun böyük əksəriyyəti, təqribən 90 faizi ətraf ərazilərdə salınan 700 hektara yaxın yaşıllıqların suvarılmasında, qalan hissəsi isə məişətdə istifadə edilir. Bu pilot layihə yalnız dəniz suyunun duzsuzlaşdırılması ilə kifayətlənməyib, eyni zamanda, Şirvan kollektorunun suyunun duzdan təmizlənməsini həyata keçirir. Bu çərçivədə kollektorda 2013-cü ildə birinci, ötən il isə gün ərzində 2500 kubmetr suyu duzsuzlaşdıran ikinci xətt istismara verilib. Ümumiyyətlə isə Şirvan kollektoru üzərində quraşdırılan qurğular gündə 5 min kubmetr suyu içməli su həddinə kimi duzsuzlaşdırır. Sutka ərzində duzsuzlaşdırılan 7 min kubmetr su 1750 hektar ərazidə yaşıllıqların suvarılmasına kifayət edir.

Prezident İlham Əliyev ting sahələrinə baxdı. Kompleksin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələri verdi.



## "Ləbbeyk" Cəmil Həsənli, yaxud Yezid, Maviyyə və Sarkisyan!

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***"Milli Şura"nın mitinqində diqqətçəkən məqamlardan biri də bu qurumun sədri Cəmil Həsənlinin "Məhsul" stadionuna daxil olarkən, Əli Kərimlinin allahsızları ilə çiyin-çiyinə gedib, din-imanlarını xəyanətə, milli satqınçılığa, lap açıqığı desək, yezidliyə dəyişən "dindarlar"ın "ləbbeyk" deyə qışqırmaları idi. Mitinqin vidosüjetlərinə baxarkən, bu açıq, şəkildə görünür. Lakin bu zaman məni bir məsələ düşündürdü ki, əcəba, bu qoca professorun axı ləbbeykə nə dəxli var? İmam Hüseyn (ə) hara, milli xain hara.?!***

Cəmil Həsənli, Əli Kərimli, Gültəkin Hacıbəyli və s. kimilərinin olduğu yerdə hansı düzgünlükdən, ədalətdən, Vətən və dövlət sevgisindən danışmağa dəyər?

Yeri gəlmişkən, hicri-qəməri təqviminə əsasən, hazırda Məhərrəm ayıdır və xalqımızın inanclı kəsimi dövlətin yaratdığı şəraitə uyğun olaraq, İmam Hüseyn (ə) əzadarlığı keçirir. Bu amil, həm də ona görə yüksək qiymətləndirilir ki, İmam Hüseyn məktəbi bəşəriyyətə bir çox əhəmiyyətli məqamları mesaj verir: dövlətini, imanını satmamaq, ona etibarlı olmaq, əqidəni dəyişməmək və s.

Ancaq gəlin görək, bunların həmin məktəbə aidiyyətləri varmı? Bir də ki, C.Həsənli, Ə.Kərimli, G.Hacıbəyli və s. kimilərinin olduğu yerdə hansı düzgünlükdən, ədalətdən, Vətən və dövlət sevgisindən danışmaq olar? Bunlar mitinqlərində bütün bunların əksinə getməklə yanaşı, işğal altındakı torpaqlarımızda kef çəkən kafir erməniyə təskinlik verirlər. Misal üçün deyirlər ki, kefinizi çəkməkdə davam edin, "Azərbaycan Ordusunun silahları köhnədir". Yəni Azərbaycanın ölkə rəhbərliyinin müharibə ritorikasından qorxubeləməyin (?!-R.).

**Bunların "imamı" Cəmil Həsənlidirsə...**

Budurmu Hüseynə (ə) olan məhəbbət? Əlbəttə ki, əsla! Bu, həmin məhəbbətə qarşı olan Yezid, Maviyyə, Sarkisyan baxışıdır!

İndi gəlin görək, "Ləbbeyk ya Hüseyn"in C.Həsənliyə nə dəxli ola bilər, axı? Bunlar, özlərini dindar adlandırıb Kərimlinin, Həsənlinin, Hacıbəylinin erməniyə satılmasına "Ləbbeyk" deyirlər. Bununla da haqq yolunu deyil, batil yolunu tutmuş olurlar.

Ancaq öz aramızdır, görəsən, bircə dəfə də fikirləşirlərmi ki, onlar aldadılıblar, necə ki, Nardaran hadisələrində də aldadılmışdılar? Əgər fikirləşsəydilər, ikinci dəfə bu satqın və xəyanətkarların, ateist və allahsızların yanında dayanıb, artistcəsinə davranmazdılar!

Yazıqlar olsun ki, "Ləbbeyk" adlı Hüseyn (ə) məktəbinin yezidsifətləri var və onlar "imam" olaraq özlərinə C.Həsənlini seçiblər, YAZIQLAR OLSUN!

# Azərbaycanın beynəlxalq siyasətdəki yeri və rolu artır

*Prezident İlham Əliyevin BMT-nin ümumi müzakirələrindəki iştirakı və keçirdiyi görüşlər məhz belə qənaətə gəlməyə əsas verir*

***Bəlli olduğu kimi, sentyabrın 19-da Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının baş qərargahında ümumi müzakirələrin açılışı olub və həmin müzakirələrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci Xanım Mehriban Əliyeva və Leyla Əliyeva da iştirak ediblər. Ümumiyyətlə, bu kimi rəsmi beynəlxalq tədbirdə ölkə başçımızın dünyanın aparıcı liderləri sırasında yer alması və Ona göstərilən diqqət və ehtiramdan da, belə qənaətə gəlmək olar ki, artıq Azərbaycan, bilavasitə öz sözünü deyən dövlətlər arasında seçilən ölkələrdəndir.***



## Təkcə ötən il ərzində BMT çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsi üzrə fəaliyyət xüsusi prioritet təşkil edib

Daha bir əhəmiyyətli məqama da toxunaraq qeyd edə bilərik ki, Azərbaycan-BMT münasibətlərinin inkişafında əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin Prezident İlham Əliyev tərəfindən daha da şaxələndirilməsidir. Əbəs yerə deyil ki, məhz ölkə başçımızın dünya siyasiləri arasında lider mövqeyinə qədər yüksəlməsi faktoru nəticəsində, ölkəmiz bu qurumdakı fəaliyyətini getdikcə daha da genişləndirməkdədir. Xüsusilə, Azərbaycanın 24 oktyabr 2011-ci ildə BMT-nin Təhlükəsizlik Şurasına iki illik müddətə qeyri-daimi üzv olaraq seçilməsi də bu amili ehtiva etməkdədir.

Ümumiyyətlə, Azərbaycan Respublikası bütün dövrlərdə BMT-nin işində fəal iştirak edib və beynəlxalq sülhün təhlükəsizliyin və inkişafın bərqərar edilməsi istiqamətində BMT Nizamnaməsinin məqsədlərinin yerinə yetirilməsinə öz töhfəsini verib. Təkcə ötən il ərzində BMT çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsi üzrə fəaliyyət xüsusi prioritet təşkil edib. O cümlədən, Azərbaycan BMT Baş Assambleyasının 70-ci və 71-ci sessiyasının əsas komitələri və plenar iclaslarının müzakirələrdə və qərarların qəbul olunmasında aktiv iştirak edərək, əsas rol alan dövlətlər sırasında yer alıb. Belə ki, bir il öncə - 20-26 sentyabr 2016-cı il tarixlərində BMT Baş Assambleyasının 71-ci sessiyasının ümumi müzakirələri keçirilib. Ümumi müzakirələr "Davamlı İnkişaf Məqsədləri: dünyamızı dəyişmək üçün birgə səy" mövzusuna həsr olunmuşdu. Müzakirələr zamanı beynəlxalq səviyyədə inkişaf məsələləri, o cümlədən, 2015-ci ildə qəbul olunmuş "2015-ci ildən sonrakı dövr üçün Davamlı İnkişaf Gündəliyi"nin yerinə yetirilməsinə dair məsələlər mühüm yer tutmuşdu.

Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının icraçı vitse-sədri, baş icraçı direktoru Malkolm Honlayn Prezident İlham Əliyevlə görüşdə Azərbaycanın müasir və sürətlə inkişaf edən bir ölkə kimi onlarda böyük təəssürat doğurduğunu bildirib

Sentyabrın 18-də Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının baş qərargahında "BMT islahatlarına dair siyasi bəyannaməyə dəstək" adlı yüksək səviyyəli tədbirdə Prezident İlham Əliyev də iştirak edib. Prezident İlham Əliyevin BMT-nin tədbirləri əsnasında keçirdiyi görüşlər də olduqca əhəmiyyətli məqamlara söykənir. Belə ki, sentyabrın 18-də Nyu-Yorkda Amerika Yəhudi Təşkilatının, Dünya Yəhudi Konqresinin, "Bnai Brith International"ın, Avrasiya Yəhudilərini dəstəkləyən Milli Koalisiyanın, Şimali Amerika Yəhudi Federasiyalarının, Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının, "Vaad L`Hatzolas Nidchei Yisroel" yəhudi təşkilatının rəhbərlərinin daxil olduğu Amerika yəhudi təşkilatlarının nümayəndələri ilə görüşdə Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının icraçı vitse-sədri, baş icraçı direktoru Malkolm Honlayn nümayəndə heyətinin təmsil etdiyi təşkilatların Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiklərini deyib. O, Bakıda Prezident İlham Əliyev ilə keçirdiyi görüşü məmnunluqla xatırlayaraq, Azərbaycanın müasir və sürətlə inkişaf edən bir ölkə kimi onlarda böyük təəssürat doğurduğunu bildirdi. Malkolm Honlayn Azərbaycan ilə ABŞ, eləcə də, Azərbaycan ilə İsrail arasında yaxşı əməkdaşlıq əlaqələrinin olduğunu məmnunluqla qeyd edib.

Azərbaycan Prezidenti İlham Əliyev də sözügedən görüşdə iştirak edən yəhudi təşkilatları rəhbərlərinin bir çoxunun Azərbaycanda olduğunu, vurğulayaraq, ölkəmizin əldə etdiyi nailiyyətlərdən onların məlumatlı olduğunu xüsusilə vurğulayıb, dövlətimizin başçısı Azərbaycanda gedən inkişaf prosesləri barədə məlumatların yayılmasının önəmini qeyd edərək, bu əməkdaşlığın vacibliyi ətrafında mühüm fikirləri çatdırıb.

Dövlət başçımız, eyni zamanda, Azərbaycan ilə ABŞ arasında münasibətlərin uğurla inkişaf etdiyini deməklə yanaşı, Azərbaycan-İsrail əlaqələrinin də yüksələn xətt üzrə inkişafından məmnunluğunu ifadə edib. Bütün bunlar isə bir daha Azərbaycanın beynəlxalq aləmdəki yeri və rolunun, o cümlədən, dünyəvi və mədəniyyət dəyərlərinə, həmçinin, multikultural və tolerantlıq reallıqlarına malik olmasının bariz göstəricisidir.

## Bu görüşlərin hər biri, bilavasitə Azərbaycanın dünyanın aparıcı dövlətlər sırasındakı yerini və rolunu daha da möhkəmləndirmiş olur

Əbəs yerə deyil ki, söhbət zamanı Amerika yəhudi təşkilatlarının rəhbərləri Azərbaycanda digər icmalar kimi, yəhudi icmasının da qarşılıqlı anlaşma və əmin-amanlıq şəraitində yaşaması üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirməklə yanaşı, onlar Azərbaycanda sabitliyin və təhlükəsizliyin yüksək səviyyədə olduğunu, xüsusilə bildiriblər. Eləcə də, həmin görüşdə Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi kontekstindəki ədalətli mövqeyi barədə də fikirlər önə sürülüb və Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər, Azərbaycanın iqtisadi inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Ümumiyyətlə, istər Azərbaycan-BMT, istərsə də ABŞ-Azərbaycan münasibətləri çərçivəsində ölkə rəhbərimiz İlham Əliyev tərəfindən yürüdülən uğurlu siyasət hər il daha səmərəli nəticələrini göstərməkdədir. Bu görüşlərin hər biri, bilavasitə Azərbaycanın dünyanın aparıcı dövlətləri sırasındakı yerini və rolunu daha da möhkəmləndirmiş olur.

**Rövşən NURƏDDİNOĞLU**

# “TURAZ Qartalı-2017” hərbi təlimləri Ermənistanda qorxu və təşviş yaradıb



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi, Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq planına əsasən, hər iki ölkənin iştirakı ilə keçirilən hərbi təlimlər, hər zaman olduğu kimi, rəsmi Yerevanda qorxu və təşviş yaradıb və düşmənin ciddi narahatlığına səbəb olub. “TURAZ Qartalı-2017” adlı hərbi təlimlərdən təşvişə düşən Ermənistan KİV-i bu təlimləri Dağlıq Qarabağın azad olunması üçün planlaşdırılan hücuma hazırlıq kimi qiymətləndirib. Qeyd edək ki, Azərbaycanla Türkiyə son illər çoxsaylı birgə hərbi təlimlər təşkil edirlər.***

Bu təlimlərdə də silahlı qüvvələrin bütün döyüş növləri iştirak edir. Həmin təlimlər həm də Azərbaycan Ordusunun artıq ciddi təcrübə topladığını, işğalçı Ermənistanı qısa zamanda məğlub etməyə qadir olduğunu da göstərir. Bu mənada, “TURAZ Qartalı-2017” adlı hərbi təlim də, erməni KİV-lərinin özlərinin də açıqlamalarından göründüyü kimi, bu ölkəni əməlli-başlı qorxuya salıb.

## Hərbi təlimlər təsadüfi ola bilməz

Türkiyə ilə Azərbaycanın birgə həyata keçirdiyi bu hərbi təlim iki qardaş dövlət arasında, ordularının vahid mövqedən çıxış etməsi ilə, fəaliyyətlərinin təkmilləşdirilməsinə istiqamətlənib. O cümlədən, belə təlimlərlə istər quruda, havada, istərsə də dənizdə problem yaranarsa, iki qardaş ölkə ordusu eyni vaxtda birgə hərbi əməliyyat təşkil etmək təcrübəsini qazanır. İstisna deyil ki, bu planlar arasında Dağlıq Qarabağın coğrafi quruluşuna oxşar şəraitdə təlimlərin keçirilməsi də daxildir. Keçirilən hərbi təlimlər Ermənistanı ciddi şəkildə, həm də ona görə qorxuya salır ki, hərbi təlimlərin bir neçə məqsədi var və onun da içində hərbi diplomatiya aləti olaraq güc nümayişi də mühüm yer tutur. Azərbaycan heç kimə hücum etmir, amma öz gücünü də nümayiş etdirir. Görünən odur ki, nümayiş etdirilən bu güc Ermənistanı xeyli dərəcədə qorxuya salıb və işğalçının çəkindiyi açıq-aşkar göz qabağındadır. İki dövlətin birgə təlimləri isə, lazım gələrsə, müttəfiqimizlə birgə fəaliyyət göstərə biləcəyimizi isbatlayır. Qardaş ölkə ilə keçirilən birgə təlimlər fonunda, Ermənistan reallığa obyektiv baxıb onları nə kimi faciələrin, məğlubiyyətlərin gözlədiyini başa düşməlidir. Başa düşməsələr, onlar üçün sonluq daha ağır olacaq.

Əslində, erməni mətbuatında verilən açıqlamalara nəzər salsaq, görərik ki, onlar məğlub durumu çox yaxşı başa düşürlər və haqlı olaraq narahatlıq keçirirlər. Hətta bəzən qıcıqlandıqları belə açıq-aydın görünür. Məsələn, politoloq Ervand Bozoyan Türkiyə ilə Azərbaycanın birgə həyata keçirdiyi bu hərbi təlimi Ermənistana təzyiq vasitəsi kimi şərh edir və bu şərh “armeniansputnik.am” xəbər saytında “Ermənistanı məngənədə sıxmaq?” başlığı altında yayımlanır. Göründüyü kimi, iki qardaş ölkənin iştirakı ilə keçirilən hərbi təlimləri Ermənistan tərəfi özü üçün məngənə və təzyiq vasitəsi hesab edir.

Ermənistan parlamentinin deputatı Miqran Akopyan da eyni mövqedən çıxış edərək, Türkiyə ilə Azərbaycanın birgə həyata keçirdiyi bu hərbi təlimi ikitərəfli hərbi əməkdaşlığa hazırlıq kimi şərh edərək, bu təlimlərin Azərbaycanın və Türkiyənin bölgədə yeganə rəqibləri olan Ermənistana təzyiq vasitəsi olduğunu bildirir. Hətta hərbi əməliyyatların başlayacağı təqdirdə, Türkiyənin Azərbaycana istər hərbi sursat, istərsə də qüvvə şəklində yardım edəcəyindən ehtiyatlandığı da aydın şəkildə özünü büruzə verir.

## Zərbə Ermənistanın dağılmasına gətirib çıxara bilər

Ermənistanda gözəl anlayırlar ki, Azərbaycan ermənilərin və onun havadarlarının oyunlarına bundan sonra dözmək fikrində deyil və müharibə hər an başlaya bilər. Azərbaycanın hərbi təlimləri təsadüfi ola bilməz və sonda Ermənistan ciddi zərbə ilə qarşılaşa bilər. Azərbaycanın torpaqları azad etmək istiqamətində qətiyyətli olması və ordumuzun gücü ermənilərin bu qədər təşviş düşməsinə gətirib çıxarıb, necə deyərlər, xain həmişə xoflu olar.

Təbii ki, Ermənistan Azərbaycanda gedən istənilən hərəkəti müşahidə edir və özlərinə uyğun olaraq da buna reaksiya verirlər. Azərbaycanın hərbi gücü Ermənistan və onun havadarları üçün artıq sirr deyil. Azərbaycan qat-qat üstün hərbi gücə malikdir və bunu real müstəvidə də göstərib. Azərbaycan istənilən vaxt hərbi güc vasitəsilə də Qarabağ məsələsini həll edə bilər. Sadəcə olaraq, dövlətimizin sülh prosesinə sədaqəti bu prosesin önünü, hələlik, kəsir.

Azərbaycanın başladığı hərbi təlimlər fonunda qorxuya düşmələri bir yana, həm də hay-küy salmaqla özlərinin, həmişə olduğu kimi, yenə də dünyaya bədbəxt bir durumda olduqlarını göstərməyə çalışırlar. Yəni onların qorxu xofunu bu cür bariz şəkildə təzahür etdirmələrinin arxasında özlərini təkrarən çarəsiz durumda göstərmək məqsədi dayanır və başa düşürlər ki, Azərbaycanla qarşıdurmaya getsələr, ordumuz qarşısında bir anın içində təslim olmağa məcbur olacaqlar. Bu baxımdan da, hay-küy salmaqla dünyanı ayağa qaldırmaq istəyirlər ki, Azərbaycan onların üzərinə hərbi qüvvə yeridəcək.

## Ermənistan yaxın vaxtlarda məğlubiyyətlə qarşılaşacağını anlayır

Bu hay-küy fonunda hiyləyə əl atmaqdan da çəkinmirlər və bəzən başqa dövlətləri də, provakasya ilə də olsa, öz çirkin siyasi oyunlarına cəlb etməyə səy göstərirlər. Son zamanlar erməni siyasətçiləri Azərbaycanın, İranın iki geosiyasi rəqibi - Türkiyə və İsraillə dostluq etməsi barədə materiallar nəşr etməklə, bu ölkələrin regionda fəallıq etməsi məsələsini gündəmə gətirməklə İranı Ermənistana dəstək verməyə təhrik etməyi planlasalar da, göründüyü kimi, bu cəhdləri də uğurla nəticələnmədi.

Vəziyyətdən çıxış yolu tapmaq, işğala və təcavüzə münasib don geyindirmək üçün bütün vasitələri səfərbər edən Ermənistan yaxın vaxtlarda məğlubiyyətlə qarşılaşacağını anlayır. İrəvanda həm də, anlayırlar ki, günlərin birində Azərbaycan Ordusu Dağlıq Qarabağ və ətrafdakı işğal altında olan rayonları güc yolu ilə onlardan geri alacaq. Ona görə də, belə təşviş içindədirlər. Heç kim Azərbaycan dövlətini və xalqını öz torpaq istəyindən geri çəkindirə bilməz.

***İnam Hacıyev***

## “Azərbaycan Respublikasında karantin əhəmiyyətli ziyanlı orqanizmlər” atlası hazırlanacaq

Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatı bitkiləri üçün təhlükəli hesab oluna biləcək karantin əhəmiyyətli ziyanlı orqanizmlər barədə irihəcmli məlumat toplusu - atlas hazırlayacaq. Atlas nazirliyin Dünya Bankı ilə birgə icra etdiyi Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsi çərçivəsində hazırlanır.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Fitosanitar Nəzarəti Xidməti ilə birgə hazırlanacaq atlasda ziyanlı orqanizmlər haqqında ətraflı məlumatlar - onların ölkəyə daxil ola bilmə istiqamətləri, dünyada yayılma arealı, xarici görünüşləri, simptomoloji əlamətləri və s. barədə informasiyalar qeyd olunacaq.

Atlasın hazırlanmasında bitki mühafizəsi istiqamətində çalışan mütəxəssislər iştirak edəcəklər. Hazırlanmış atlas nəinki bu sahədə çalışan müfəttişlər və elm adamları, o cümlədən ölkədə kənd təsərrüfatı bitkiləri və məhsulları sahəsində idxal-ixracla məşğul olan sahibkarlar üçün də maraqlı informasiya mənbəyi olacaq. Məlumat toplusunun çap ilə yanaşı, hər kəsin əldə edə bilməsi üçün elektron formatda hazırlanması da nəzərdə tutulub.



## Lüləyi Əli Kərimli, qapağı Cəmil Həsənli olan təşkilatın mitinq oyunbazlığı

RƏFİQƏ

***Belə bir məsəl var: “abırlı insan abrını gözlər”. Satqınçılıqla aldıqları qrantların artırılmasını istəyən satılanlarda nə abır, nə həya var. Bu abırsızlıqla siyasi gündəmdə qalmaqdan ötrü var-gəl edən, çıxış yolu tapmayanda isə, mitinq keçirəcəklərini deyən lüləyi Əli Kərimli, qapağı Cəmil Həsənli olan AXCP-”Milli Şura” cütlüyünün “liderləri” bu dəfə də köhnə vərdişlərini işə salıblar. Onların “möhtəşəm mitinqi” keçirmək istəkləri yenə də biabırçılıqla başa çatıb. Belə də olmalı idi. Axı, bu günə kimi, hələ ki, o çayı keçə bilməyən satqınlar mərkəzinin “liderləri” ancaq oyunbazlıq göstəriblər.***

Ən maraqlısı isə, həyasızcasına və utanmadan çoxminli kütləvi aksiyalar keçirməyi planlaşdırdıqlarını deyirdilər. Bu sözü 24 ildən çoxdur ki, deyirdər. Bir də hansı kütlə və ya hansı kütləvilikdən söhbət gedir? Bir müddət öncə, keçirmiş olduqları aksiyaların fiaskosunu, rəzalətini nə tez unutdular? Axı dağıdıcı müxalifət qüvvələrinin bir tək təşkilatları deyil, həm də ideyaları, fikirləri və məramları da pərakəndədir. Yaxşı bəs bunu kim aradan qaldıracaq? Yenə də gücü çənəyə verdilər. Əli Kərimlinin 300 nəfərlik insan toplusuna “mənim xalqım” - deyə səslənməsi, Cəmil Həsənlinin sanki bir milyonluq mitinqdə nitq söyləyirmiş kimi havaya girib kükrəməsi, gerçək bir fiaskonun, eyni zamanda, psixi pozğunluğun nəticəsi kimi dəyərləndirilməlidir. İnsanda gərək abır-həya da olmalıdır ki, bu qədərini edə bilsin və təşkil olunan aksiyaya - üstəgəl icazəli ikən - 250 nəfərin yığılmasını, tində “Patron” tumu çırtlamasını “möhtəşəm mitinq “adı ilə manşetlərə daşıya bilsin. Bunu ancaq Ə.Kərimli kimi avantürist edə bilərdi ki, elədi də.

Əslində, səs-küy vasitəsilə qabağa keçəcəyini düşünən lüləyi Ə.Kərimli, qapağı C.Həsənli olan təşkilatın “liderləri” nə qədər uzun yol qət etsələr, bir o qədər də öz ifşalarına yaxınlaşacaqlar. Bu da abırsızlığın son həddidir. Elə müxalifət qüvvələrinə yaraşan da budur. Çünki sadizm təfəkkürü müxalifətin qanına hopub. Necə ki, bəzi arvadlar var ki, ayda bir dəfə əri tərəfindən döyülməyincə rahatlaşmaz, dağıdıcı müxalifət də təxminən elə o fason bir şeydir. Çünki Ə.Kərimli “atlar ölüb, itlərin bayramıdır” - fəlsəfəsinə qapılmağı sevir, həmin fəlsəfənin yaratdığı mənzərədən kef almağa çalışır. O da bu cür həm xəstədir, həm də həyasız və abırsızdır, neyləsin?

# Həmsədrlərin səfərləri turist səfərləridir

*Azər Həsrət: "Minsk Qrupu oturub gözləyir ki, münaqişə tərəfləri dil tapacaq, onlar da bunu dəstəkləyəcək"*



**Müsahibimiz siyasi şərhçi Azər Həsrətdir**

***- Azər müəllim, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə təkbətək görüşlərindən sonra birgə görüşləri də keçirildi. Bu görüşlər Dağlıq Qarabağ münaqişəsinin həllinə yardımçı ola biləcəkmi?***

- ATƏT-in məlum qrupu ilə görüşlər gərəklidir, amma onlar heç də qısamüddətli uğurdan xəbər vermir. Çünki əvvəlki illərdə də bu qrupun üzvləri deyirdilər ki, Azərbaycanla Ermənistan öz aralarında anlaşsın, biz də dəstəkləyək. Bizsə deyirdik ki, əgər özümüz anlaşa bilsəydik, sizin qrupa nə gərək vardı? Bax, durum indi də dəyişməyib. Yəni Minsk Qrupu oturub gözləyir ki, münaqişə tərəfləri dil tapacaq, onlar da bunu dəstəkləyəcək. Bu baxımdan, münaqişənin həlli ilə bağlı nikbin fikir söyləyə bilmirəm.

***- ATƏT-in Minsk Qrupunun həmsədrləri görüşün keçirilməsini və danışıqların nəticələrini yüksək qiymətləndirirlər. Sizcə, ortada nə isə müsbətə doğru dəyişiklik varmı?***

- Bu, onların adətidir. Ümumiyyətlə, dünyada qəbul edilən qayda belədir ki, münaqişə tərəfləri problemi silah gücünə deyil, masa arxasında həll etsin. Məlum deyimi xatırlatsaq, ən pis sülh ən yaxşı müharibədən yaxşıdır. İndi bu həmsədrlər də o məqamdan çıxış edirlər. Yəni baxın, biz görüşdük, danışdıq, münaqişənin həlli üçün daha bir cəhd edib, qan tökülməsinə imkan vermədik. Belə bir durum Azərbaycan üçün müsbət sayıla bilərmi? Əlbətə ki, yox. Biz yalnız torpaqların işğaldan azad olunmasını müsbət irəliləyiş kimi qəbul edə bilərik. Bu isə baş vermir. Vermirsə, deməli, müsbətə doğru dəyişiklik haqqında danışa bilmərik.

***- Necə düşünürsünüz, xarici işlər nazirlərinin görüşündən sonra prezidentlərin görüşü üçün münbit şəraitin yarandığını demək olarmı?***

- Prezidentlərin görüşü mütləq olmalıdır. Hətta şərait münbit olmasa belə. Çünki hər iki ölkənin ən ali rəhbərlərinin müzakirə aparması işin xeyrinədir. Düzdür, Ermənistan rəhbəri, davamlı olaraq görüşlərdən yayınır, mümkün razılaşmaları sabotaj edir, amma yenə də görüşmək və danışmaq lazımdır. Münbit şərait o zaman mümkün olardı ki, Ermənistan Azərbaycanın haqlı tələblərini qəbul etməyə hazır olduğunu bildirsin. Bu isə baş vermir.

***- ATƏT-in Minsk Qrupunun həmsədrləri oktyabr ayında regiona səfər etməyi planlaşdırırlar. Bu səfər əvvəlkilərdən hansısa bir formada fərqlənə biləcəkmi?***

- Əsla, fərqli bir şey gözləmirəm. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin səfərləri turist səfərləridir. Bu həmsədrlər gəlirlər, görüşürlər, bəyanat verib, çıxış gedirlər. Torpaqlar işğaldan azad olunurmu? Olmur. Ona görə də, indiki səfərdən də nəsə gözləmirəm.

**GÜLYANƏ**

# Kursantlar hərbi andı qəbul etdilər

***Dövlət Sərhəd Xidməti Akademiyasında kursantların andiçmə mərasimi keçirilib. Hərbi andı qəbul etmələri münasibətilə Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbriki şəxsi heyətə çatdırılıb.***







Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin 2010-cu ilin avqust ayının 10-da akademiya kompleksinin açılış mərasimində iştirak etməsinin qürur hissi ilə xatırlandığı mərasimdə qeyd olunubdur ki, Vətənə sədaqət andı içən kursantların hərbi bilikləri yüksək səviyyədə mənimsəmələri, bacarıqlı, sağlam, peşəkar sərhədçi zabit olmaları üçün akademiyada bütün şərait yaradılıb, güclü elmi-tədris bazası və yüksəkixtisaslı hərbi-pedaqoji heyət formalaşıbdır. Akademiyanın zabit-gizir, professor-müəllim heyəti gənc kursantların Vətənin layiqli müdafiəçiləri kimi yetişmələri üçün bütün bilik, təcrübə və bacarıqlarını sərf edirlər.

Gənc kursantlar adından çıxış edənlər hərbi biliklərə dərindən yiyələnəcəklərinə, dövlət sərhədlərini göz bəbəyi kimi qoruyacaqlarına və sərhədçi adını daim uca tutacaqlarına söz veriblər.

Tədbirdə çıxış edən valideynlər övladlarının Dövlət Sərhəd Xidməti Akademiyasında təhsil almaları ilə fəxr etdiklərini bildirərək, gənc kursantlara dövlətimizə və xalqımıza sadiq, mətin, mərd və qürurlu zabit kimi yetişərək, Vətən torpaqlarının müdafiəsinə daim hazır olmalarını arzulayıblar.

**R.HÜSEYNOVA**

# Azərbaycan modeli "ASAN xidmət"ə maraq artır

***Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları, aparılan islahatlar, yeni layihələrin icrası ölkənin inkişafı üçün geniş imkanlar açıb. Həyata keçirilən inkişaf nəticəsində müasirləşən, modernləşən Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, multikultural, informasiya-kommunikasiya texnologiyaları və kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınıb.***




Təbii ki, Azərbaycan iqtisadi qüdrəti ilə seçildiyi kimi, innovativ texnologiyalardan istifadə imkanları ilə də fərqlənir. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər davamlı olaraq həyata keçirilir. Azərbaycan Prezidentinin 2005-ci il 22 oktyabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açdı. Azərbaycan Prezidentinin "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli Fərman isə İKT sektorunun inkişafına münbit zəmin oldu. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı.

Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir. Bu gün əbəs deyil ki, İKT ölkəmizdə korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu da qısa müddətdə özünü doğrultdu. Bu onu göstərir ki, Azərbaycan, uğurlu inkişaf modelinə malik dövlətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışındakı nitqində vurğuladığı kimi, bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən, əqli məhsulların ixrac edir: "Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" ictimai münasibətlərin və xidmətlərin müasir modelidir. Eyni yerdə 251 xidmətin göstərilməsi, tam şəffaflıq, korrupsiya və rüşvətxorluğun sıfıra endirilməsi "ASAN xidmət"i bir çox ölkələr üçün cəlbedici edib". Sırf Azərbaycan brendi olan "ASAN xidmət"in yaradıldığı gündən ötən 5 il ərzində 5 milyon insana 1 milyon 600 min xidmət göstərildiyini bildirən Prezident İlham Əliyev müraciətlərin ümumi sayının 17 milyona çatdığını vurğulayıb:"ASAN xidmət"in ictimaiyyət tərəfindən bəyənilməsi 98 faiz təşkil edir. 2015-ci ildə dövlət xidmətlərinin əhəmiyyətli dərəcədə sadələşdirilməsinə, təkmilləşməyə verdiyi töhfəsinə və yaradıcı olmağına görə "ASAN" Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülmüşdür".

Müasir dövrümüzdə "ASAN xidmət" dünyaya nümunə olan modeldir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Azərbaycanın "ASAN xidmət" modeli dünyanın bir çox ölkələri, beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilir və bu təcrübəyə böyük maraq var. Bu modeldən dünya ölkələri bəhrələnir. Dövlət xidmətlərinin səmərəliliyinin artırılması hazırda bir çox ölkələr üçün önəmli çağırışlardan biri olduğundan, tərəfdaş ölkələrlə "ASAN xidmət" modelinin tətbiqi, təcrübələrin paylaşmağı istiqamətində fəal əməkdaşlıq aparılır. Bu günlərdə Mərakeşin Rabat şəhərində keçirilən yerli idarəetmə orqanları və insan resursları mövzusuna həsr olunan Afrika Yerli İdarəetmə Orqanlarının Birinci Beynəlxalq Forumu çərçivəsində beynəlxalq qabaqcıl təcrübə kimi "ASAN xidmət" modeli Afrika ölkələri üçün təqdim olunub. Forum çərçivəsində keçirilən "Afrikada yeni geosiyasət və əks-mərkəzləşmə kontekstində insan kapitalının yeri" mövzusunda plenar sessiyada ölkəmizi təmsil edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nümayəndəsi "ASAN xidmət"in fəaliyyətini əks etdirən geniş təqdimatla çıxış edib. İştirakçılar "ASAN" təcrübəsi əsasında kadr potensialının formalaşdırılması üzrə əməkdaşlıq etməyə hazır olduqlarını bildiriblər.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "Şahdağ" Turizm Mərkəzi yay mövsümünü başa vurub

***İnkişaf etmiş sivil dünyanı yeraltı və yerüstü sərvətləri ilə heyrətləndirən Azərbaycan müasir dövrümüzdə də dəyərləri ilə beynəlxalq aləmin diqqət mərkəzindədir. Belə ki, Azərbaycanın iqtisadi inkişafı, siyasi sabitlik, sosial həyatdakı uğurlar ölkəmizi dünyaya daha da yaxınlaşdırır. Əgər belə olmasaydı, ölkəmizə gələn turistlərin sayında nəzərəçarpacaq dərəcədə artım müşahidə olunmazdı.***





Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə reallaşan dövlət proqramları turizmin də daha da inkişafına səbəb olub. Ölkədə yüzlərlə turizm şirkətinin fəaliyyəti, turizm marşrutlarının yaradılması, beşulduzlu otellərin istifadəyə verilməsi, eləcə də, peşəkar kadrların hazırlanmasına diqqətin artırılması və s. Azərbaycanın turizm ölkəsi tək tanınmasında əsas amillər sırasındadır.

Ölkəmizdə Şahdağ Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycan turizminin inkişafında uğurlara gətirib çıxardı. Dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənən kompleks Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə Şahdağ Milli Parkının ərazisində salınıb. Şahdağ Qış-Yay Turizm Kompleksi müasir tələblərə cavab verir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Şahdağ Qış-Yay Turizm Kompleksinə çəkilən avtomobil yolu genişləndirilib, yeni körpülər salınıb, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilib və digər müvafiq işlər görülübdür. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən biri olan Şahdağ Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açıb.

Azərbaycan tarixində ilk dağ-xizək kurortu olan Şahdağ Qış-Yay Turizm Kompleksinə daxil olan "Qaya" və "Zirvə" mehmanxanalarının açılışı turistlərin istirahətinə geniş imkanlar açıb. "Zirvə" otelində - 40 nömrə, personal üçün 3 otaq, restoranlar, bar, kafe, pab, bilyard zalı, mağazalar, konfrans zalı, xizək avadanlıqlarının icarəsi, xizək məktəbi, tibb məntəqəsi, avtomobil dayanacağı və sair obyektlər mövcuddur. "Qaya" otelində isə 62 nəfər turistin yaşayışı üçün nəzərdə tutulan 26 nömrə, fitnes klubu, restoran, bar, kafe və sair obyektlər mövcuddur. Kompleksdə keyfiyyətli xidmət göstərilməsinin təmin olunması üçün qrup hallında kompleksə turist göndərəcək şirkətlər üçün sifarişlərin qəbul olunması üçün artıq Bakı Turizm İnformasiya Mərkəzində "Call Center" məlumat və sifariş mərkəzi yaradılmış və fəaliyyətə başlamışdır. Bu cür imkanlara malik olan "Şahdağ" Turizm Mərkəzində də artıq yay mövsümü başa çatdı.



Sayca beşinci olan bu yay mövsümü ərzində mərkəzə üz tutan turistlərin sayı keçən yay mövsümlərindəki rəqəmləri üstələyərək, 40 000-dən çox olmuşdur. Onların 68%-dən çoxunu xarici ölkələrdən olan turistlər, xarici turistlərin 83%-dən çoxunu isə ərəb ölkələrindən gələn tursitlər təşkil etmişdir.

## 3 AY DAVAM EDƏN LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ YAY DÜŞƏRGƏSİNDƏ 160-DAN ÇOX UŞAQ İŞTİRAK EDİB

Bu mövsüm ilk dəfə olaraq uşaqlar üçün ingilis dilli "Şahdağ" Yay Düşərgəsi beynəlxalq pilot layihəsinin əsası qoyulmuş, 3 ay davam edən layihə çərçivəsində yay düşərgəsində Azərbaycan, Türkiyə, İran, Fransa, BƏƏ, Gürcüstan, Rusiya və Mərakeş kimi ölkələrdən 160-dan çox uşaq iştirak etmiş, "ASAN Məktub" layihəsi ilə birlikdə təşkil edilmiş xeyriyyəçilik aksiyası nəticəsində, respublikanın müxtəlif bölgələrindən aztəminatlı ailələrdən olan 25 uşağa xeyriyyə məqsədi ilə düşərgədə bir həftəlik istirahət hədiyyə edilmişdir.

Kompleksin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada turistlərin trassa sistemini özlərinə uyğun seçmək imkanlarının olmasıdır. Bütün dağ-xizək trassası süni qar yaratma generasiya sistemi ilə təchiz edilib. Layihənin reallaşdırılması respublikada dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün də hərtərəfli imkanlar açır. Bu, qış idman növlərində milli idmançılarımızın yetişməsində əvəzsiz rol oynayacaqdır. "Şahdağ" Qış-Yay Turizm, "Tufan" Dağ-Xizək Qış-Yay İstirahət komplekslərində görülən işlər Azərbaycanın turizmin inkişafı sahəsində əldə olunan uğurların göstəricisidir. Yaradılan şərait, bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Qusara səfər edə bilərlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan bu məkanlar qışda da turistlərin ən gözəl istirahət mərkəzi olacaq. Bütün bunlar onu göstərir ki, Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına təsirini göstərir. Azərbaycanda yaradılan imkanlar dünya səviyyəsindədir.

***ZÜMRÜD BAYRAMOVA***



**İLHAM**

## Dığırqarın uşaqlar yenə də iş başındadır

***Oxuduqlarıma və eşitdiklərimə görə, insanın başına nə bəla, müsibət gəlirsə, dilinə yiyəlik edə bilməməsindən gəlir. Yəni bir də görürsən ki, kimsə dəxli olmayan məsələlərə müdaxilə edib, söz güləşdirir və ya filosoflardan, dahi şəxsiyyətlərdən sitatlar və aforizimlər misal gətirir. Təbii ki, gözlənilməz qonağın nala-mıxa vuran sözlərindən, hərəkətlərindən əndişələnən, bəzi hallarda halı pərişan olan mövzunu ortaya atan şəxs bərk əsəbiləşir.***

Ona qarşısındakını "əz, vur" deyən şeytanın fitnə-fəsadına uyaraq zor-zor işlərə əl atır. Sonra da el ağzı dilə gəlib, döyülüb-söyülənin, yazığın, biçarənin biri olduğunu söyləyir. Amma demirlər ki, bu yazıq deyilən, əzilən şəxs niyə dilinə yiyəlik eləmir? O günləri saytlardan birində oxuyuram ki, Rəşad Dağlı adlı bir bədahətən hap-gop edən bir mütrübü Masallıda toyların birində əməlli-başlı "isladıblar." Nədi-nədi, ağzından quş buraxıb. O qədər sərsəmləyib, o qədər sərhədləri keçib ki, ətrafda olanlar səbirsizlik göstərib, mütrüblər siyahısında adı olan bu meyxanaçını o ki var döyüblər. Bir qədər əvvəl də, Ədalət adlı bir Şükürovun da toyların birində "ay gədə keçmə bizim məhlədən" dediyinə görə əngini vurub əzmişdilər. Deyilənə görə, əvvələr ud ifaçısı olmuş Ədalət Şükürov uzun müddət müalicə olunub. Elariz Məmmədoğlunun dediyinə görə, ənginin əzilməsindən sonra Ədalət mütrüb toylarda oxuduğu mahnının sözlərinə fikir verməyə başlayıb. Döyülməkdən, təhqir olunmaqdan söz düşmüşkən, bir qədər əvvəl görkəminə və formasından kultiristə oxşayan Vüqar Muradov orda-burda çox əngə verdiyi üçün Moskvaya toya dəvət adı ilə çağırıb, meşəyə aparıb əngini əzmişdilər. Bilmirəm, o söhbətin axırı necə oldu, amma onu dəqiq bilirəm ki, bu Vüqar mütrüb də artıq dilinə yiyəlik etməyə başlayıb. Hərdən düşünürəm ki, bir gün kimsə əsəbiləşib Elza Seyidcahanın da aşının suyunu verəcək. Əslinə qalsa, Elza mütrüb çoxdan daşa-divara çevrilməli idi. Çünki bu mütrüb özü o yana dursun, başqalarını da öz "dərin dünya bilgilərinə" yoluxdurmağa cəhd edir. Deyir ki, guya onun mədəni - müğənni faliyyəti dünya standartlarına söykənir. Kimsə bu fəaliyyət istiqamətindən bəhrələnsə, cibi pula, beynidəki də az qala Beyonce kimi riqqətə gələr. Bu xanım mütrüb o günləri də 11 il birgə yaşadığı pişiyinin ölümündən o qədər kədərlənib ki, sosial şəbəkələrdə vay-şivən qurub, vaxsey-şaxsey də öz yerində. Utanıb-çəkinmədən iddia edib ki, pişiyi bir qədər də yaşasaydı, ona dəm-dəsgahlı toy çaldıracaq idi ki, səs-sorağı Hollandiyaya qədər gedib çıxacaqdı. Amma ömrü pişiyə vəfa etmədi. 11 illik dostunu-yoldaşını itirməyinə dözməyən Elza Seyidcahan qəmdən-qüssədən özünə qapanaraq, hücrəsinə çəkilib. Amma onu televiziyaların birində yayımlanan və zövqləri alt-üst etməyə hesablanan verilişdə münsiflər sırasında görüblər. Danışırlar ki, Elza mütrüb yenə də ənənəvi ampluasındadır. Yenə də öz bildiyini danışır. Misal üçün münsiflər qırmızı vərəq göstərəndə bu yaşıl, yaşıl göstərəndə isə qırmızı göstərir. Bir növ yenə də, fərqlənməyə çalışır. Hərdən fikirləşirəm ki, bu Elza mütrübün axırı necə olacaq? Sualın cavabını tapsam və ya onunla bağlı müsbətə doğru məlumat əldə edə bilsəm, mütləq yazacam. Hələlik isə, onu deyim ki, şou aləmində vur-çatlasın, çal-oynasındır. Kim-kimi gəldi, söyür, kim kimi gəldi, döyməyə çalışır. Dilinə yiyəlik etməmək də adi hala çevrilib. Vay bələlərinin halına!

# Sarkisyanın özünü aldadan siyasəti

## *Bu siyasət xalq-iqtidar arasında vəziyyəti gərginləşdirir*













***Ermənistanda hakim Respublika Partiyasının dövlət idarəçilik sisteminə qarşı narazılıqlar artmaqda davam edir. Belə ki, işğalçı ölkənin prezidenti Serj Sarkisyanın özünü aldadan siyasəti xalq-iqtidar arasında vəziyyəti daha da dərinləşdirib. Eyni zamanda, bu siyasət, həmçinin, get-gedə Rusiyadan daha asılı vəziyyətə düşməsinə, xalqın isə bu ölkəni kütləvi şəkildə tərk etməsinə gətirib çıxarıb. Yaranmış vəziyyətlə bağlı erməni ekspertləri bildirirlər ki, Ermənistanın Rusiyanın forpostu olmasına rəğmən, Qərbə doğru meyillənməsi bu ölkəni və xalqı bu ağır vəziyyətdən xilas etməyəcək. Həmçinin, onu da bildirirlər ki, artıq Ermənistan vətəndaşları hakimiyyət uğrunda çəkişmələrdən yorulublar. Məhz bu səbəbdən də ölkədə tez-tez etiraz aksiyaları keçirilir.***

"Jamanak" qəzetinin məlumatına görə, özbaşınalıqlara son qoyulmasını tələb edilən növbəti mitinqi "Təsisçi parlament" ictimai hərəkatının qadınlar birliyi keçirib. Aksiya iştirakçıları rejimin təzyiqlərinə məruz qalan fəalların azadlığa buraxılmalarına çağırış ediblər. Ötən ilin iyulunda post-patrul xidməti alayının ərazisini tutmuş silahlı qrupun üzvlərinə çörək aparan Artur Sarkisyanın aclıq aksiyasına başlaması da fəalları hiddətləndirib. Onun vəziyyətinin pis olduğu bildirilir. Nubaraşen təcridxanasının xəstəxanasına yerləşdirilən A.Sarkisyanla yanaşı, digər fəalların da azadlığa buraxılmaları tələb edilir.

Qəzet yazır ki, Ermənistandakı mövcud siyasi, sosial və iqtisadi vəziyyət Cənubi Qafqazda məskunlaşdırılan ermənilərin bu əraziləri də tərk etmələrinə səbəb olur.

### Ermənistan boşalmaqda davam edir

Göründüyü kimi, işğalçı ölkədə yaranmış gərgin vəziyyət Ermənistan əhalisinin sayının get-gedə daha da azalmasına səbəb olub. Belə ki, ildən-ilə ölkəni tərk edənlərlə yanaşı, xalqın acınacaqlı vəziyyəti doğum hallarının azalması, ölüm hallarının isə artması ilə nəticəsini tapmaqdadır. O cümlədən, ölkənin süquta uğradığı bir vaxtda oranı tələm-tələsik tərk edənlərin bir çoxunun, ümumiyyətlə, geri dönməyəcəkləri barədə informasiylar təsdiqini tapmaqdadır.

Xüsusilə, rəsmi rəqəmlərin açıqlanması özü-özlüyündə işğalçı ölkənin aşkar durumunu göz önünə gətirir. Belə ki, cari ildə də Ermənistan əhalilsinin sayı kifayət qədər azalıb. Siyahıyaalma uçotunun göstəricisnə görə, 2011-ci illə müqayisədə 2017-ci il 1 iyul tarixində əhalinin sayı rəsmi olaraq 2 milyon 979,9 min nəfərə qədər azalıb.

Ermənistan statistikasının məlumatına görə, əhalinin sayı 1 iyul 2017-ci ildə 2016-cı illə müqayisədə 15,2 min nəfər azalıb. 2017-ci ilin 1 yanvar tarixi ilə müqayisədə isə 6,2 min nəfər azalma müşahidə olunub, Yerevan əhalisinin sayı 1 milyon 075,1 mindir.

Beləliklə, bildirilir ki, 1 yanvar 2016-cı il hesablamalarına görə, 70-ci illərdən bu yana Ermənistanın əhalisinin sayı ilk dəfə 3 milyondan azdır.

Beləliklə, Ermənistanın mövcud vəziyyəti təcavüzkar siyasətinin bariz nəticələrini ortaya qoyur və belə davam edərsə, nə Ermənistanda, nə də "DQR"də, ümumiyyətlə, insanların yaşaması mümkün olmayacaq. Hər halda, statistikialar da belə qənaətə gəlməyə zəmin yaradır.

### Silah məsələsi Ermənistan ictimaiyyətini qorxu altında saxlayır

Ölkədə yaranmış gərgin vəziyyətlərdən biri də Azərbaycanın güclü iqtisadiyyata malik olmasıdır. Belə ki, erməni ekspertləri bildirirlər ki, Azərbaycan özünün neft gəlirləri hesabına ən müasir silahları ala bilir. Bunu qondarma Dağlıq Qarabağ Respublikasının Ermənistandakı daimi nümayəndəliyinin müşaviri Qarnik İsaqulyan da erməni mətbuatına açıqlamasında Rusiyanın silah satışı ilə bağlı fikirlərini bildirərək deyib ki, Azərbaycan özünün neft gəlirləri hesabına ən müasir silahları almağa nail olub. "Iragir.am" saytının siyasi şərhçisi Akop Badalyan isə yazır ki, biz də əsas olaraq silahları Rusiyadan alırıq və bizim bu məsələni Rusiyanın qarşısına sərt şəkildə qoymamağımız, belə deməyə əsas verir ki, bizdə müəyyən fora mövcuddur.

Erməni analitiki Qarnik İsalyan isə yazır ki, erməni tərəfi Azərbaycanın daha qorxulu silah almaq qüdrətinə malik olduğunu etiraf edir: "Azərbaycanın Rusiyadan silah alması yaxşı haldır. Güclü iqtisadiyyatı olan Azərbaycan daha təkmilləşdirilmiş silahlar əldə edir. Erməni eksperti onu da bildirir ki, Azərbaycan silahlanmada Ermənistandan fərqli olaraq kifayət qədər çox pul xərcləyir. Halbuki Serj Sarkisyan 2006-cı ildə bəyan etmişdi ki, bu məsələ ciddi şəkildə qorunur. Ancaq Serj Sarkisyanın həmin bəyanatının üzərindən 10 il keçməsinə rəğmən, eyni bəyanatını necə təkrar səsləndirə bilər? Yaxud Ermənistan texnoloji cəhətdən daha təkmilləşdirilmiş silahları Rusiyadan deyil, başqa ölkədən ala bilərmi? Bütün bunlar onu təsdiqləyir ki, Sarkisyan, bütün sahələrdə olduğu kimi, hərbi sahədə də özünü aldadan siyasət yürütməkdədir. Serj Sarkisyanın 10 il öncə verdiyi bəyanatı, sadəcə boş ifadələrdir və bu gün də Ermənistan rəhbərliyinin səsləndirdiyi fikirləri əsassızlıqdan və boşboğazlıqdan başqa heç nəyi əks etdirmir".

### Yeqişe Petrosyan: "Görünən budur ki, Sarkisyan hakimiyyəti xalqın qanını ya gizli, ya da həyasızcasına açıq şəkildə sorur"

Digər erməni politoloqu Yeqişe Petrosyan isə bildirir ki, əgər sistem eynidirsə, şəxsiyyətlərin dəyişilməsi heç nəyi dəyişməyəcək: "Mən bu barədə demişdim, bu gün də sözlərimiz üzərində qalıram. Kimsə zahirən cəlbedici görünə bilər, başqası çılğın danışan, ancaq belə bir vəziyyətdə bataqlıqda batan xalq üçün heç nə dəyişmir. Bütün bu deyilənlər Sarkisyan hakimiyyətinə aiddir. Hakimiyyətdə oturanların hər biri yalançıdırlar. Mən onlara yalançı nəzəri ilə baxıram. Mənim üçün hakimiyyətdə kim hara getdi, kim haradan gəldi, ümumiyyətlə maraqlı deyil. Görünən budur ki, onlar xalqın qanını ya gizli, ya da həyasızcasına açıq şəkildə sorurlar. Onlar öz əməllərini davam etdirməklə, ölkənin inkişafının qarşısını almaqda davam edərlərsə, bu zaman bizim mübarizə aparmaqdan başqa çarəmiz qalmır".

Göründüyü kimi, nəticə etibarilə fakt ortadadır və yuxarıda qeyd edilən fikirləri də Ermənistanın politoloqları səsləndirirlər. Bu isə, bir daha sübut edir ki, işğalçı ölkənin prezidentinin özünüaldadan siyasəti nəticəsində, çox qısa zaman kəsimində, işğalçı ölkənin süquta uğraması anlamını daşıyır.

**A.SƏMƏDOVA**

# Müxalifətin əməlləri utancvericidir

*Təhmasib Novruzov: "Milli Şura"nın rəhbərliyi dedi-qodu və çayxana danışıqları ilə mitinq idarə edir"*



"Milli Şura" deyilən qondarma qurum növbəti dəfə özünü ifşa edən mini-aksiya keçirdi. Təqribən 250-300 nəfərinin iştirak etdiyi mitinqdə Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və digərləri gülüşə səbəb olan dezinformasiya xarakterli çıxışlar etdilər. Bununla həm də, bir daha özlərini ifşa etmiş oldular. "Azadlıq" Hərəkatçıları Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, mitinqin uğursuzluğa düçar olmasının başlıca səbəbi "Milli Şura"nın cəmiyyət tərəfindən qəbul edilməməsidir: "Bu xalq yaxşını pisdən seçməyi və kimim kim olduğunu ayırd etməyi bacaran xalqdır. Müxalifət düşərgəsini təmsil edən şəxslərin çıxışları və fəaliyyəti açıq-aşkar Azərbaycan dövlətçiliyinin, milli mənafelərinin maraqlarına deyil, hansısa Azərbaycan dövlətin əleyhinə olan qüvvələrin marağına xidmət etdiyi göz qarşısındadır. Xalqın içində özünə nüfuz qazanmayan bu qüvvələrin yalandan hay-küy salmalarının da bir mənası var. Bu da bunlara sifariş verən qüvvələrə özlərini göstərməkdir ki, biz lazım olan addımları atırıq, tapşırıqları da yerinə yetirə bilirik".

"Mitinq təşkilatçılarının çıxışları daha çox dedi-qodu, şər-böhtan, dezinformasiya xarakterli məlumatlar üzərində qurulmuşdur. Bu, o deməkdirmi ki, artıq onların ətraflarında olan insanlar, belə deyəcək sözləri qalmayıb" sualına cavab olaraq, T.Novruzov bildirdi ki, mitinq təşkilatçılarının çıxışları çox utancverici çıxışlar idi. Demək olar ki, "Milli Şura"nın rəhbərliyi dedi-qodu və çayxana danışıqları ilə mitinq idarə edir. Bunun özü də unancverici faktdır".

"Mitinqə əsas müxalifət partiyaları belə dəstək vermədilər. Bu, Əli Kərimliyə, Cəmil Həsənliyə olan inamsızlığa bağlıdır, yoxsa başqa konkret səbəblər var" sualına cavab olaraq, T.Novruzov bildirdi ki, müxalifət partiya sədrlərinin onlara dəstək verməməsi inamla bağlı deyil: "Burada xarici qüvvələrin verdiyi sifarişlərlə bağlı maraqların toqquşmasıdır. Yəni bu sifariş niyə, məhz Əli Kərimliyə və Cəmil Həsənliyə verildi, bunlara verilmədi. Müxalifət partiya sədrlərinin bir-birini qəbul etmələrinin kökündə, əsasən, maliyyə məsələləri durur. Çünki sifariş kimə verilirsə, maliyyə də ona ayrılır və ona da göndərilir. Yəni Ə. Kərimliyə və C.Həsənliyə göndərildi, o biriləri isə qaldı əli boş".

"Milli Şura" oktyabr ayında növbəti mitinq keçirməyi planlaşdırır. Bu mitinqlər, bir növ hansısa tapşırıqları yerinə yetirmək və planları icra etmək məqsədinə xidmət etdiyini demək olarmı" sualına cavab olaraq, T.Novruzov bildirdi ki, növbəti il Azərbaycanda prezident seçkiləri ilidir: "Bu baxımdan da, xarici qüvvələr müxalifətin əli ilə ölkəmizdə nə isə xoşagəlməz bir vəziyyət yaratmaq istəyir. Amma nə istəmələrindən asılı olmayaraq, onlar heç vaxt öz məkrli istəklərinə çatmayacaqdır".

**GÜLYANƏ**

# Müsavat partiyasında daxili çəkişmələr gərginləşir

Son günlər Müsavat partiyasında mövcud olan böhran daha da dərinləşib. Məhz bütün bu dağıdıcı proseslərin və ziddiyyətlərin nəticəsi kimi, partiya daxilində istefalar adi hala çevrilib. Xüsusilə də, bu cür "mərkəzdənqaçma" meyilləri İsa Qəmbərin planı əsasında başqan "seçilmiş" A.Hacılıya qarşı yeni və daha mütəşəkkil cəbhənin formalaşdırılması cəhdlərini ifadə edir. Hətta ziddiyyətlər o həddə çatıb ki, başqan A.Hacılı onu tənqid edən ayrı-ayrı partiyadaşları ilə açıq qarşıdurmaya girmək yolunu tutub.

## Arif Hacılının diktatura təfəkkürü

A.Hacılının, bütövlükdə, Müsavatda idarəetməni ənənəvi olaraq diktatura təfəkküründə davam etdirməsi, bir daha idarəçiliyin tamamilə iflic olduğunu göstərir. Bu cür siyasi dözümsüzlük mühiti isə qurum daxilindəki digərlərinin cəbhəni yenidən hərəkətə keçirib, siyasi ritorika daha da sərtləşib. İş o yerə çatıb ki, partiya siyasi iflic vəziyyətinə düşüb. A.Hacılının başqanlığına etiraz edən şəxslərə qarşı mənəvi terror və repressiyaların tətbiq olunması siyasi situasiyanın mürəkkəbləşməsini şərtləndirib.

Növbəti il keçirilməsi nəzərdə tutulan prezident seçkiləri ərəfəsi Müsavata mənsub olanlar, partiyadan istefa verənlər və qovulanlar bildiriblər ki, mətbuat üzərindən savaşın başlanması vaxtıdır. Müsavat başqanlığına keçmiş namizəd Səxavət Əlisoy KİV-ə açıqlamasında bildirib ki, Müsavat partiyasının bütün strukturları saxtakarlar tərəfindən işğal olunub: "Bu gün Müsavat saxtakar Arif Hacılı kimilərin əlindədir. Ona görə də, təbii ki, biz Müsavat partiyasını saxtakarların əlindən almaq üçün mübarizəmizi davam etdirməliyik. Ehtimal ki, yeni bir qurum ortaya çıxacaq".

Onu da qeyd etmək lazımdır ki, Müsavat partiyasından uzaqlaşan şəxslər, birmənalı şəkildə bəyan edirlər ki, radikal və ekstremist təfəkkürlü şəxslərin bu quruma rəhbərlik etmələri ilə yaranmış diktatura mühiti qarşıdakı dövrdə də Müsavatın ciddi itkilərə məruz qalmasını şərtləndirəcək.

Göründüyü kimi, partiyada mövcud vəziyyət siyasi yararsızlıq və uğursuzluq simvoluna çevrilmiş Müsavatın gələcəyinin müəmmalı olacağını, partiyadaxili münaqişələrin və qarşıdurmaların sayının daha da artacağını göstərir.

**Rəfiqə HÜSEYNOVA**

# Ölkə ərazisində havanın temperaturu düşəcək, bəzi bölgələrə yağış yağacaq



Ölkə ərazisində sentyabrın 26-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 17-20°, gündüz 22-26° isti, Bakıda gecə 17-19°, gündüz 23-25° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 764 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 55-65 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, sentyabrın 26-da Abşeron yarımadasında iqlim normasına yaxın temperatur rejimi və arabir güclənən mülayim xəzri küləyi meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın bəzi rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz əksər rayonlarda havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 25-30° isti, dağlarda gecə 8-13°, gündüz 16-21° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 28-33° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər və axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13° isti, gündüz 16-21° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı, gündüz havanın əsasən yağmursuz keçəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 24-29° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 23-28° isti, dağlarda gecə 6-11°, gündüz 13-18° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 25-30° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı ehtimalı var. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-20°, gündüz 23-27° isti, dağlarda gecə 9-14°, gündüz 17-22° isti olacağı gözlənilir.

# Yaşlı qadını yük maşını vurdu



Samux rayonunda yük maşını piyadanı vurub. SİA-nın verdiyi məlumata görə, hadisə Samuxun Qarayeri qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 1940-cı il təvəllüdlü Bayramova Kübra Yusif qızı evinin yaxınlığında yolu keçmək istəyərkən yük maşını tərəfindən vurulub. Ağır vəziyyətdə Gəncə Təcili yardım xəstəxanasına aparılan qadın orada dünyasını dəyişib. Faktla bağlı araşdırma aparılır.

# İran İraq Kürdüstanı ilə hava sərhədlərini bağlayıb



Dünən İranın Milli Təhlükəsizlik Şurasının təcili iclası keçirilib. İclasda İraqın Kürdüstan muxtar qurumunun müstəqilliklə bağlı keçirdiyi referendum müzakirə olunub.Bu barədə məlumat verən Şuranın rəsmi nümayəndəsi Keyvan Hoşrevi bildirib ki, hələlik rəsmi Tehran İraqın Kürdüstan muxtariyyəti ilə hava sərhədlərini bağlamaq qərarına gəlib. Bundan başqa, muxtariyyətə İran üzərindən uçuşların həyata keçirilməsinə də icazə verilməyəcək. K.Hoşrevi qeyd edib ki, İraqın Kürdüstan muxtariyyətinə rəhbərlik edən şəxslərin müstəqillik haqqındakı fikirləri bölgə xalqını yeni təhlükələrlə üzləşdirə bilər. İran İraqın bölünməsini deyil, onun vahid dövlət kimi qalmasını istəyir.

# Azərbaycan filmi beynəlxalq film festivalında




"Azərbaycanfilm" kinostudiyasının istehsalı olan "Çölçü" filmi Kəlküttə beynəlxalq "Cult" filmləri festivalının "Golden Fox Awards" ("Qızıl tülkü") mükafatının nominantı olaraq finala çıxıb. Kinostudiyadan AZƏRTAC-a verilən məlumata görə, Hindistanın Kəlküttə şəhərində dekabrın 5-6-da keçiriləcək festivalın mükafatlandırma mərasiminə filmin rejissoru Şamil Əliyev dəvət alıb. Qeyd edək ki, "Çölçü" bədii filmi indiyədək 32 beynəlxalq kinofestivalda və forumda nümayiş olunub və müxtəlif mükafatlar qazanıb.

TƏRS BAXIŞ

# Gültəkin Hacıbəyli ermənilərə necə işləyir?

*Yaxud qaçqın və əlillərin haqqına girənin "ədalətdən" danışmağa haqqı yoxdur!*

***"Milli Şura" deyilən qondarma qurumun sentyabrın 23-də keçirdiyi rüsvayçı mitinqdə diqqəti cəlb edən və ictimai rəyin şiddətli qınağına səbəb olan hadisələrdən biri də bu ölü qurumun koordinasiya şurasının üzvü Gültəkin Hacıbəylinin Azərbaycanın Silahlı Qüvvələri haqqında irəli sürdüyü böhtan dolu və düşmən dəyirmanına su tökən şər və öhtan xarakterli fikirləri idi. Belə ki, G.Hacıbəylinin AXCP sədri Əli Kərimlinin və Cəmil Həsənlinin əhatəsində dayanaraq, ordumuza qarşı ağlına gələn fikirləri önə çəkməsi dərhal Ermənistan mediasında yayımlandı.***

### Xalq yaxşı bilir ki, bu fərdlər uzun illərdir ki, siyasi fəaliyyətlərindəki xainliklə, dönüklüklə, satqınlıqla və öz şəxsi maraqları üçün hər kəsi qurban verməklə məşğuldurlar

Bu amildən çıxış edərək, bir daha qənaətə gəlmək mümkündür ki, adıçəkilən ünsürlərlə Azərbaycan xalqını, Azərbaycan dövlətini heç bir bağlarla bağlamır və onların ümdə məqsədləri bacardıqca ölkəmizin reputasiyasına zərbələr vurmaq, bunun isə əvəzində, erməni lobbisinin maliyyələşdirdiyi xarici qurumlardan daha çox qrant toplamaqdır. Əbəs yerə deyil ki, hər zaman olduğu kimi, bu dəfə də ictimaiyyət AXCP-"Milli Şura" cütlüyünün siyasi şoularına heç bir dəstək vermədi. Xalq yaxşı bilir ki, bu fərdlər uzun illərdir ki, siyasi fəaliyyətlərindəki xainliklə, dönüklüklə, satqınlıqla və öz şəxsi maraqları üçün hər kəsi qurban verməklə məşğuldurlar. Bu səbəbdən, guya Azərbaycan əsgərlərinin səngərlərdə əliboş (?!-R.N.) dayandığı və Azərbaycan Ordusunun silah-sursatın "sınıq və yararsız" olduğu haqda sərsəm çıxış edən G.Hacıbəyli ermənilərin sevimlisinə çevrilib...



Əlbəttə, erməni mediası həmin böhtanlı fikirləri dərhal ictimailəşdirdi və bununla düşmən və işğalçı ölkə, necə deyərlər, əlinə "kozır" aldı ki, sonrakı müddətdəki informasiya müharibəsində anti-Azərbaycan fəaliyyətində bacardıqca istifadə etsin. G.Hacıbəylinin xəyanət dolu fikirlərini Ermənistan mediasının dərhal tirajlaması sübut etdi ki, bu, daha öncədən razılaşdırılmış bir ssenaridir və xarici qüvvələrə işləyən "Mill Şura", məhz bu fikirlərə görə erməni lobbisi tərəfindən müəyyən maddi vəsaitlə mükafatlandırılacaq. Digər tərəfdən, Ermənistan hakimiyyəti rəsmilərinin özünün "Azərbaycanın pulu var, ona görə bu cür silahlar alır" kimi fikirlərinin üzərindən saatlar keçməmiş G.Hacıbəylinin erməni ictimaiyyətini müharibə xofundan sakitləşdirmək üçün atdığı belə bir murdar addımın arxasında kimin və nəyin dayandığı hər bir kəsə kifayət qədər bəllidir!

### Gültəkin Hacıbəylinin 2008-ci ildə Mehdiabad bələdiyyəsindən şantaj və həyasızlıq vasitəsi ilə torpaq qoparması haqqında sübutlar bu gün də qalmaqda davam edir

Başqa bir yandan, G.Hacıbəylinin bu gün bir neçə yüz adamın qarşısına çıxıb "haqq-ədalətdən" danışması, ümumiyyətlə, heç bir çərçivəyə sığmayan bir haldır. Çünki bu fərd hələ deputat olduğu dövrlərdə onlarla qaçqının və əlilin, şəhid ailələrinin haqqına girərək, dövlətin onlara məxsus aid etdiyi torpaqlara güc yolu ilə sahib olurdu. Misal üçün, bir faktı önə sürə bilərik. Belə ki, G.Hacıbəylinin 2008-ci ildə Mehdiabad bələdiyyəsindən şantaj və həyasızlıq vasitəsi ilə torpaq qoparması haqqında sübutlar bu gün də qalmaqda davam edir. Elə də uzağa getməyərək, həmin ərəfələrdə adıçəkilən qəsəbənin bələdiyyə sədrinin müavini olmuş BAXCP sədrinin müavini Niyaməddin Orduxanlının fikirlərini xatırlaya bilərik. "Həmin illərdə mən Mehdiabad bələdiyyəsinin sədr müavini olmuşam" -deyə xatırladan N.Orduxanlı sözügedən açıqlamasında deyib. SİTAT: "Bilirəm ki, yadınızdan çıxmayıb, bələdiyyəyə gəlib, iki ailə üzvünüz olduğu halda, 12 sot torpaq götürməyiniz. "Əlillər" massivindən aldığınız torpağı xatırladınız? Uca səslə deyrdiniz ki, "Mən millət vəkiliyəm, prezident seçkilərində ölkə başçısının vəkili olmuşam! Bu gün müdafiə etdiyiniz Xədicə İsmayılı, Leyla Yunusu, İntiqam Əliyevi, Tofiq Yaqublunu, Əli Kərimlini və Cəmil Həsənlini necə ittiham edirdiniz?! Bu adamları "xalq düşməni" adlandırdınız... Deyə bilərsinizmi, o zaman daha səmimi idiniz, yoxsa indi?! Bu hadisənin canlı şahidləri də var".

N.Orduxanlı onu da xatırladıb ki, G.Hacıbəyli bayrağını dəyişəndən sonra "zorla müxalifət" olanlardandır: "Necə ki, Əli Kərimli, Cəmil Həsənli olublar. Bu adamlar hakmiyyətdən uzaqlaşdırıldıqdan sonra dönüb olublar "müxalifət". Ona görə də, belə şəxslərin ittihamları cəmiyyət tərəfindən ciddi qəbul oluna bilməz".

Məhz həmin faktları da önə sürərək, deyə bilərik ki, G.Hacıbəylinin heç vaxt ədalətdən danışmağa mənəvi haqqı yoxdur. Nə Azərbaycan barədə, nə də adicə insanlıq ətrafında. Çünki onun atdığı iyrənc və mənfur addımların hər biri xəyanətkarlıq, milli satqınçılıq olmaqla yanaşı, həm də qeyri-insanidir. Bu səbəbdən, belələrinin yeri cəmiyyət arasında ola bilməz!

***Rövşən NURƏDDİNOĞLU***

# Lvovda balıqdan kütləvi zəhərlənmə baş verib



Ukraynanın Lvov şəhərində qurudulmuş skumbriya balığından kütləvi zəhərlənmə baş verib. AZƏRTAC xəbər verir ki, Lvovun vağzal bazarından alınan qurudulmuş skumbriya balığından ən azı 54 nəfər zəhərlənib. Onlardan 48-i xəstəxanaya yerləşdirilib. Zəhərlənənlərdən 7 nəfəri uşaqdır. Bağırsaq infeksiyasının konkret nədən baş verdiyi müəyyənləşdirilir. Məlumata görə, bu il Lvovda bağırsaq infeksiyasından bu cür kütləvi zəhərlənmə qeydə alınmayıb.

# Gömrükdə qeyri-qanuni siqaret aşkarlanıb

Gömrük nəzarətinə bəyan edilməyən siqaretlər aşkar olunub. Dövlət Gömrük Komitəsindən SİA-ya verilən məlumata görə, Xaçmaz Gömrük İdarəsinin "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə Rusiya istiqamətindən daxil olan Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib. Yoxlama zamanı nəqliyyat vasitəsində olan əl yüklərinin içərisində gömrük nəzarətinə bəyan edilməyən 8600 ədəd "Marlboro" markalı siqaret aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

# "Milli Şura" uğursuz mitinqlə özünü axmaq yerinə qoydu

Sirr deyil ki, dağıdıcı müxalifəti son illərdə tamamilə zəifləyib. Təkcə müxalifətin təşkil etdiyi mitinqlər dediklərimizi əyani sübut edir və keçirdikləri mitinqlərə öz tərəfdarlarından başqa kimsə gəlmir. Bu da xalqın müxalif düşərgəyə olan inamsızlığını sübut edir. Hətta xalqı yaxından maraqlandıran problemlərlə bağlı keçirdiyi aksiyada belə müxalifət cəmiyyətdən dəstək ala bilmir.

Cəmiyyətdən dəstək ala bilmələri üçün, təbii ki, cəmiyyətin inamını qazanmaları mütləq şərtdir. Boş söz yığını, iftiralar, yalanlar, böhtan xarakterli çıxışlar, xalqa deyil xarici havadarlarına sığınmaq, onların maliyyəsindən asılı vəziyyətdə fəaliyyət göstərməklə bu inamı, etibarı qazana biləcəkləri mümkünsüzdür. Çünki xalq yaxşı başa düşür ki, Azərbaycanın əleyhinə çalışan qurumlar, fondlar, lobbilər və təşkilatların dəstəyi ilə fəaliyyət göstərən müxalifət xalqın maraqlarını deyil, onları maliyyələşdirən qurumların mövqeyini müdafiə edəcək. Zəngin təcrübəyə malik olan Azərbaycan xalqı, müxalifətin ard-arda verdiyi vədlərin sonda boş söz yığınından başqa bir şey olmadığının dəfələrlə şahidi olub.

## Yalan vədlər müxalifəti bitirir

Digər tərəfdən, nəinki xalqın, hətta eyni düşərgədə olan partiyadaşlarının belə etibarını qazana bilməyən bir müxalifət heç bir uğura imza ata bilməz. Söyüş və təhqirlə, bir sözlə, təhrik olunmaqla aksiyalara çağırış etmələri göstərir ki, aksiyalarda heç öz nümayəndələrinin də iştirak etməyəcəklərini özləri də yaxşı başa düşürlər. Qeyd etdiyimiz kimi, xalqın maraqlarını deyil, hər bir partiya yalnız öz imtiyazları üçün canfəşanlıq etdiyini, aksiyalarının isə sosial sifariş olmadığını yaxşı başa düşdükləri üçün aksiya təşkilatçısı Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə yaraşmayan müxtəlif vasitələrlə, qeyri-etik çağırışlarla nümayəndələrini bir növ tədbirdə iştirak etməyə təhrik edir. Hətta buna baxmayaraq, ayrı-ayrı partiyaların liderləri sosial sifarişin olmadığını, bunun siyasi dividend qazanmaq cəhdi olduğunu, təşkilatçıların və iştirakçıların böyük oyunun aktyorları olduğunu, açıq-aşkar onlara qoşulmayacaqlarını bəyan edərək, tədbirlərdə iştirak etməkdən boyun qaçırırlar.

Müxalifət partiyalarının daxilində heç bir demokratiyadan söhbət gedə bilməz və mütləq avtoritarizm hökm sürür. Partiyalar ayrı-ayrı şəxslərindir. Həmin şəxs maliyyəni tapır və bir sözlə, partiya fəaliyyəti şəxsi biznesə çevrilib. Əgər lider istefa verərsə, deməli, partiyası da bağlana bilər. Heç bir uğuru, fəaliyyəti olmayan liderin istefası, partiyanın bütövlükdə yox olması deməkdir. Bu da, o deməkdir ki, hətta uğursuz fəaliyyət nümayiş etdirən lider belə heç vaxt dəyişilməyəcək və partiyanın da fəaliyyətində də müsbət nəticələr əldə olunmayacaq. Milli maraqlara deyil, siyasi dividend, maliyyə resursları əldə etməyə köklənmiş fəaliyyətlə məşğul olan partiyaların fəaliyyəti, əvvəllər olduğu kimi, yenə də eyni istiqamətdə davam edir və belə də davam edəcəyi şübhə doğurmur.

Müxtəlif adlar altında yaradılmış blokların da fəaliyyətində uğurlardan danışmağa dəyməz. Çünki bu blokların adları fərqli olsa da, onların təşkilatçıları və liderləri elə uğursuz müxalifət partiyalarının liderləridir. Bu blokların bir qismi parçalanmaya məruz qalsa da, digərlərinin fəaliyyəti uğursuzluğa məhkumdur.

## Müxalifət dəyişməz ampluadadır

Son vaxtlar müxalifət düşərgəsinə məxsus sosial şəbəkələrdə şişirdilmiş rəqəmlər, tərəfdarlarının çox olduğu barədə yalançı statistik hesabatlar, həmişə olduğu kimi, özünü doğrultmadı. Bunu əvvəlcədən özləri də bilirdilər və ona görə də, "Milli Şura"nın keçirdiyi mitinqdə iştirak etməkdən boyun qaçırırdılar. Eyni zamanda, bu aksiyanın təşkilatçılarının mitinq keçirilməleri barədə qərar qəbul etdiyi zaman yalnız özlərinin iştirak etmələri, digərlərini dəvət etməməsi ondan xəbər verir ki, özlərinin siyasi dividend adlandırdığı, əslində, hamının qrant kimi qəbul etdiyi maliyyə resurslarını başqaları ilə bölüşmək fikri olmayıb.

Göründüyü kimi, yenə də eyni aura, eyni metodlar, eyni istiqamətdə fəaliyyət davam edir və belə olduğu halda, ya biri digərini kənarlaşdırmaq marağındadır, ya da digəri maraq, imtiyaz güdmədiyi təqdirdə qoşulmaq, birləşmək marağında deyil. Beləliklə, müxalifət düşərgəsində təmsil olunan ayrı-ayri partiyalar, həmişə olduğu kimi, yenə də demokratiya, azadlıq və sair ali prinsplər pərdəsi altında şəxsi maraqlarını güdürlər. Belə olan halda, onların birləşməsinə, formalaşmasına hətta özləri də inanmırlar. Çünki yarınmaq üçün, bu siyasi müstəvidə daha çox davam gətirməyə can atanlar, artıq başa düşürlər ki, Azərbaycan dövlətinin, hakimiyyətinin bu qədər nailiyyətlərə imza atdığının, beynəlxalq aləmdə nüfuzunun bu qədər yüksəldiyinin şahidi olan havadarları onların, nəinki fəaliyyətini, hətta tezliklə özlərini də unudacaq.

***İnam HACIYEV***

# Azərbaycan dövlətçilik tarixinin Heydər Əliyev konsepsiyası

***Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixinin dövrləşdirilməsinə və dövlətçilik tariximizə dair konsepsiyası ilə də böyük şöhrət qazanmışdır.***

Ümummilli Lider XX əsrə qiymət verərkən, əsrin sonunda müstəqil dövlətin yaradılmasını Azərbaycan xalqının ən böyük nailiyyəti hesab edirdi: "XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlətin möhkəm təməllərini yaratmışdır. Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin Konstitusiyasını qəbul etmiş, qanunvericiliyini, hakimiyyətin bölünmə prinsiplərini, hüquq normalarını dünya standartları səviyyəsinə uyğun digər dövlətlərlə hərtərəfli əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Bu illər ərzində yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmişdir".

AMEA-nın akademiki, Tarix İnstitutunun direktoru Yaqub Mahmudov Ulu Öndər Heydər Əliyevin XX əsrdə tariximizin dövrləşdirilməsi konsepsiyasını belə səciyyələndirir:

Elmi təfəkkürümüzün inkişafında xüsusi səhifə olan "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" əsrində XIX-XX yüzilliklərin tarixinə xüsusi diqqət yetirilir. Xalqımızın siyasi dirçəliş və dövlətçiliyimizin bərpası uğrunda mübarizəsində, tarixi taleyimizdə çox mühüm rolu olmuş, eyni zamanda, ayrı-ayrı prosesləri, hadisələri və tarixi şəxsiyyətlərin fəaliyyəti dəhşətli dərəcədə təhrif edilmiş XX yüzilliyin Heydər Əliyev tərəfindən araşdırılması, xüsusilə diqqətəlayiqdir. Ömür yolu bu əsrdə keçmiş, ağır və gərgin mübarizələrlə dolu bir həyat yaşamış, Azərbaycanın, SSRİ-nin və ümumiyyətlə, dünyanın tarixi taleyində qüdrətli bir dövlət xadimi kimi mühüm rol oynamış və həmin əsrin ən nadir tarixi şəxsiyyəti zirvəsinə yüksəlmiş Heydər Əliyevin XX yüzilliyin tarixini araşdırması, onun ayrı-ayrı dövrlərinə, hadisələrinə, proseslərinə qiymət verməsi, əslində, gələcəkdə həmin tarixin doğru-düzgün işıqlandırılması üçün çox qiymətli bir ilk mənbəə, istiqamətverici elmi xəzinə olacaqdır.

Ən başlıcası budur ki, müraciətdə ilk dəfə olaraq dərin elmi-nəzəri təhlil əsasında XX yüzilliyimizin tariximiz dövrləşdirilir. Özü də bu dövrləşdirmə xalqımızın keçdiyi tarixi inkişaf yolunun reallıqlarını əks etdirir.

XX əsr tarixinin Heydər Əliyev dövrləşdirilməsində bu yüzillikdə baş vermiş iki başlıca tarixi hadisə - əsrin əvvəlində yaranmış Azərbaycan Xalq Cümhuriyyəti və əsrin sonunda əbədi bərqərar olmuş müstəqil Azərbaycan Respublikası əsas götürülür.

Beləliklə, XX yüzilliyin tarixi dörd mərhələyə ayrılır:

Birinci mərhələ - Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün tarixi zəminin yetişməsi dövrüdür. Bu dövrü, sadəcə olaraq, ərəfə də adlandırmaq olar. Həmin dövr 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə başa çatır.

İkinci mərhələ - Azərbaycan Xalq Cümhuriyyəti dövrüdür (1918-1920).

Üçüncü mərhələ - 1920-ci ilin aprel işğalından başlanan sovet dövrüdür. Həmin dövr 1991-ci il oktyabrın 18-də "Müstəqillik Haqqında Konstitusiya Aktı"nın qəbul olunması ilə başa çatır.

Dördüncü mərhələ - 1991-ci ilin oktyabrından başlanan müstəqillik dövrüdür, daha doğrusu, müstəqilliyimizin bərpası dövrüdür.

Fikrimizcə, həm tarixi reallıq, həm də dərin elmi-nəzəri əsaslara söykənməsi baxımından Heydər Əliyev xalqımızın XX yüzillikdəki tarixini elə dövrləşdirmişdir ki, bu tarixi başqa cür dövrləşdirmək, kənara çıxmaq, sadəcə olaraq, tarixi saxtalaşdırmaq demək olardı.

Yeri gəlmişkən, belə bir cəhəti, xüsusi olaraq qeyd etmək lazımdır ki, Heydər Əliyev təfəkkürünün məhsulu olan müraciət XX əsr tariximizin güzgüsüdür. Bu sənəddə ötən yüzillikdə yaşadığımız tarixin müxtəlif mərhələlərinə, ayrı-ayrı proseslərinə və hadisələrinə, habelə, görkəmli şəxsiyyətlərimizə aydın, konkret və düzgün qiymət verilir. XX əsr tariximizin Birinci Mərhələsini və ya Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına doğru gələn yolu nəzərdən keçirən Heydər Əliyev göstərir: "XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxardı, əlverişli mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı. Bu dövr XX əsr Azərbaycan tarixinin Birinci Mərhələsi adlandırılmaq olar".

XX əsr tariximizin İkinci Mərhələsinə, yəni Azərbaycan Xalq Cümhuriyyəti dövrünün bütün proseslərinə və hadisələrinə ilk dəfə ən bitkin elmi və nəzəri və siyasi qiyməti özünün müxtəlif çıxışlarında, məhz Heydər Əliyev vermişdir. Bu dövrdə böyük siyasətçimiz tərəfindən verilən konkret qiymət belədir. Azərbaycan üçün İkinci Mərhələ çar Rusiyasının işğalından sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə edildiyi dövr kimi qiymətləndirən Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin müxtəlif sahələrindəki fəaliyyətini yüksək dəyərləndirir, Əlimərdan bəy Topçubaşov, Fətəli Xan Xoyski və bir çox başqa ictimai-siyasi xadimlərin cümhuriyyətin yaradılmasında müstəsna xidmətlərini xüsusi qeyd edir: "Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq və müstəqillik fikirlərini daha da gücləndirmiş oldu. Bu cümhuriyyətin yaradılmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Usubbəyov, Mehdi bəy Hacınski, Məhəmməd Yusif Cəfərov, Xudaqulu bəy Rəfibəyov Əkbər ağa Şeyxülislamov, Teymur bəy Makinski, Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Sultan Məcid Qənizadə, Xəlil bəy Xasməmmədov, Əhməd bəy Pepinov, Şəfi bəy Rüstəmbəyov kimi görkəmli ictimai xadimlərin xatirələrini qədirbilən Azərbaycan xalqı bu gün də böyük ehtiram hissi ilə yad edir". Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolunu və cümhuriyyət xadimlərinin fəaliyyətini belə qiymətləndirir: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır".

Qeyd etmək istərdik ki, XX əsr tariximizin Üçüncü Mərhələsini şərh edərkən Azərbaycan tarixşünaslığında, ilk dəfə olaraq, məhz Heydər Əliyev tariximizin "sovet dövrü" adlandırılan həmin dövrün ilk iki ilini - 1920-1922-ci illəri, daha doğrusu, 1920-ci ilin aprel işğalından 1922-ci ildə SSRİ-nin yaradılmasına qədərki dövrü müstəqilliyin saxlanılması dövrü kimi qiymətləndirmişdir. Göstərilən dövrdə Azərbaycanın bir müstəqil dövlət qurumu kimi yaşadığını sübut etmək üçün Heydər Əliyevin gətirdiyi faktların hamısı tarixi gerçəklikdir. İndi də Heydər Əliyevin həmin iki ilə - 1920-1922-ci illərə verdiyi obyektiv tarixçi qiymətinə nəzər yetirək: "ÜÇÜNCÜ MƏRHƏLƏ 1920-ci ilin aprelindən başlanır. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra da, o öz müstəqilliyini saxlamış, aprelin 30-da Rusiya ilə Azərbaycan arasında hərbi-iqtisadi müqavilə imzalanmışdı. Azərbaycanda xarici ölkələrin nümayəndəlikləri, o cümlədən, Rusiya konsulluğu da fəaliyyət göstərirdi. Azərbaycanın bu dövrdə yürütdüyü uğurlu siyasətin təzahürlərindən biri kimi Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətlərində aparılan işlər, Moskva və Qars müqavilələri, Genuya Konfransı sayıla bilər. 1920-ci ildə Bakıda Şərq xalqlarının birinci qurultayı keçirildi. Bolşeviklər Şərq ölkələrinin yeni inqilabi dəyişikliklərə can atmaq arzusunda olmadıqlarını gördükdən sonra, öz siyasi məqsədləri naminə Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması ideyasından əl çəkdilər".

Heydər Əliyevin xalqa müraciəti tarixə obyektiv baxış nümunəsidir. Daha sərrast deməyə çalışsaq, tarixdə xalqın rolunu unudanlara tutarlı bir alim cavabıdır. Belə cavaba isə bu gün çox, lap çox ehtiyac var. Çünki vaxtın keçmişdə bəzi cahillər tariximizin "sovet dövrü"nün üzərindən xətt çəkməyə çalışır, əmək və müharibə qəhrəmanlarını, o zaman fəaliyyət göstərmiş görkəmli ziyalıları gözümçıxdıya salır, onların fəaliyyətini heçə endirməyə çalışır, hətta onları lağa qoymaqdan da çəkinmirdilər. Heydər Əliyev isə müraciətdə belələrinə kəskin və birmənalı cavab verir: "1922-1991-ci illər Azərbaycanda sovet hakimiyyətinin qurulması və 70 il ərzində Azərbaycanın sovet hakimiyyəti, sovet dövləti çərçivəsində yaşaması dövrünü əhatə edir. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmışdır".

Y.Mahmudov 1993-cü ildə Ulu Öndərin ikinci dəfə hakimiyyətə gəlməsini tarixə "Heydər Əliyev dövrü" kimi daxil edərək, yüksək qiymətləndirir: "Tariximizin 1993-cü ilin iyun günlərindən sonrakı dövründə qazanılmış bütün uğurlarımızın başlıca səbəbi də, məhz qüdrətli tarixi şəxsiyyətlə bağlıdır, HEYDƏR ƏLİYEV şəxsiyyəti ilə! Bütün bu müddət ərzində Azərbaycan xalqının başında, məhz belə bir qüdrətli siyasətçi durur - düşmənlərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların aramsız olaraq dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri - yüzilləri qabaqlayan, qalınqalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovcunun içərisindəki kimi görən Heydər Əliyev başçılıq edir Azərbaycana! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitibtükənməyən məkrlərinin, hiylələrinin və ən müasir silahlarının qarşısında, məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bilir.

Müstəqillik tariximizin - 1993-cü il iyunundan sonrakı dövrünün - ən mühüm nailiyyətlərindən biri də tariximizin Heydər Əliyev konsepsiyasının formalaşmasının başa çatmasıdır. Əsrin, minilliklərin qovşağında dünyanın bütün azərbaycanlılarına müraciətdə Böyük Azərbaycanlı həmvətənlərimizə, bütün soydaşlarımıza bu sahədə əldə olunanları, tarix elmimizin və tarixi tədqiqatların əsas məram və prinsiplərini belə bəyan edir: "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir".

Dünyanın çoxsaylı xalqlarından, türk dünyasının isə ən böyük xalqlarından biri olan Azərbaycan xalqına müasir dünyada özünün çox mürəkkəb problemlərini həll etmək, qədəm qoyduğumuz XXI yüzillikdə və üçüncü minillikdə taleyüklü sınaqlardan zəfərlə çıxa bilməkdən ötrü ağır vəziyyətlərə duruş gətirmək psixologiyası, məğlubedilməzlik ruhu, tarixi keçmişimizin qəhrəmanlıq səhifələrini dirçəltmək əzmkarlığı aşılamaq son dərəcə vacibdir. Bu gün hər bir yurddaşımız öz tarixini daha dərindən öyrənməli, ona yiyələnməli, keçmişdə baş vermiş acı səhvlərin bir daha təkrar olunmasına yol verməmək ruhu ilə yaşamalıdır. Bu baxımdan, Prezident Heydər Əliyevin Dədə Qorqud dastanının 1300 illiyi, xalqımıza qarşı həyata keçirilmiş soyqırımları, sürgünlər, o cümlədən, soydaşlarımızın əzəli ata-baba yurdlarından - Qərbi Azərbaycandan (sonralar Ermənistan adlanan ərazidən) zorakı deportasiyası, Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi barədə verdiyi fərmanlar və tarixi çıxışları ilə yanaşı, Onun dünya azərbaycanlılarına müraciəti də milli oyanışımızda, xalqımızın özünü dərketmə prosesində, milli-mənəvi dirçəlişimizdə çox mühüm rol oynayacaqdır.

Prezident Heydər Əliyevin "Azərbaycan XXI əsrin və Üçüncü Minilliyin ayrıcında" adlı müraciəti xalqımızı, dünyanın müxtəlif guşələrinə səpələnmiş bütün azərbaycanlıları, hər bir soydaşımızı, ilk öncə, Azərbaycan gəncliyini yeni - böyük Azərbaycan intibahına səsləyən çağırışdır!".

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Dünyada ən ağır çəkili qadın BƏƏ-də vəfat edib

Dünyada ən ağır çəkili qadın olan İman Əhməd Abdullati çəkinin azaldılması üzrə çoxsaylı əməliyyatlardan sonra bu gün səhər Abu-Dabidəki "Burjeel Hospital" xəstəxanasında dünyasını dəyişib. Yerli KİV-lər hospitalın məlumatına istinadla bildirirlər ki, onun ölümünə səbəb ürək xəstəlikləri, bağırsaq keçirməzliyi və böyrək çatışmazlığı ilə əlaqədar fəsadlar olub.



AZƏRTAC xəbər verir ki, 37 yaşlı İsgəndəriyyə (Misir) sakini İ.Abdullati uşaqlıq illərindən qalxanvarı vəzinin nadir xəstəliyindən əziyyət çəkirmiş. Çəkisi 500 kiloqrama çatan bu qadın uzun müddət yataq xəstəsi olub. Mumbayda (Hindistan) həkim briqadasının cərrahi müdaxiləsindən sonra o təxminən 200 kiloqram arıqlayıb.

Bu il aprel ayında reabilitasiya dövrü keçmək üçün BƏƏ paytaxtına gəlmiş İ.Abdullati burada müxtəlif profilli 20 mütəxəssisdən ibarət həkim komandasının müşahidəsi altında olub. BƏƏ-də Abdullatiyə göstərilmiş qulluğa və müalicəyə görə onun ailəsi xəstəxananın həkimlərinə və rəhbərliyinə minnətdarlığını bildirib, onları dəstəklədiyinə görə Əmirliyin hökmdarlarına və xalqına təşəkkür edib. Bu il sentyabrın 9-da İ.Abdullati BƏƏ paytaxtında ailə üzvlərinin və dostlarının əhatəsində 37 yaşını qeyd edib.

# XƏBƏRDARLIQ: İşıqda yatmaq çox ziyanlıdır!

Alimlər araşdırmalar nəticəsində belə qərara gəliblər ki, işıqda yatan insanlarda depressiya, stress, artıq çəki, immunitetin zəiflənməsi, hətta onkoloji xəstəliklərin (xüsusilə qadınlarda süd vəzi xərçənginin) riski qaranlıqda yatan insanlarla müqayisədə daha çoxdur. Bunun səbəbi gecə saatlarında ifraz olunan melatonin hormonudur. Bu hormon bizi streslərdən, depressiyadan qoruyur, qocalmanı ləngidir, immun sistemini möhkəmləndirir, hətta onkoloji xəstəliklərin riskini azaldır. Melatoninin 70%-i məhz gecə saatlarında (xüsusilə 00.00-dan 00.04-ə qədər) ifraz olunur. Eksperimentlər zamanı sübut olunub ki, işıqda və hətta gecə lampası işığında yatan laboratoriya heyvanlarında melatoninin ifrazı xeyli azlır və bu da onların sağlamlığına və həyatının uzunluğuna mənfi təsir edir. Bu proses insanlarda da baş verir. Bəzi araşdırmalar göstərir ki, işıqda yatan insanlarda ürək-damar sistemi xəstəliklərinin riski artmış olur. Hal hazırda həblər şəklində olan melatonin hormonu ürəyin işemik xəstəliyi, hipertoniya və s. xəstəliklərin müalicəsində istifadə olunur. Alimlər qaranlıqda yatmağı, yataq otağında gecə lampasından istifadə etməməyi tövsiyə edirlər.

# İmmuniteti gücləndirən ən sadə vasitə...

Soyuq fəsillərdə özünüzü infeksiyalardan qorumaq üçün çobanyastığı çayından istifadə edə bilərsiniz. Çobanyastığı çayı tanınmış və effektli infeksiya əleyhinə və immuniteti gücləndirən vasitədir. Hər gün 1-2 fincan çobanyastığı çayı içməklə siz özünüzü infeksiyalardan qoruya bilərsiniz. 1 çay qaşığı çobanyastığını 1 fincan qaynar suda dəmləyin. 20 dəqiqədən sonra çayı süzün və 1 çay qaşığı bal əlavə edib için.

## BAŞSAĞLIĞI

Azərbaycan Universiteti İctimai Elmlər Kafedrasının əməkdaşları Xarici dillər kafedrasının müdiri Samirə Məmmədovaya əzizi

**ASİF NOVRUZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***


# SƏS

Son səhifə 26 sentyabr


# Qadın voleybolçulardan ibarət Rusiya yığması dörddəbir finala yüksəlib




Sentyabrın 25-də Azərbaycanda və Gürcüstanda təşkil edilən qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin "C" qrupundan dörddəbir finala birbaşa vəsiqə qazanan komanda müəyyənləşib. AZƏRTAC xəbər verir ki, dörddəbir finala birbaşa vəsiqə uğrunda Rusiya və Bolqarıstan komandaları qarşılaşıblar. Milli Gimnastika Arenasında keçirilən görüş gərgin və maraqlı idman mübarizəsi şəraitində keçib. Matçın ilk setində Bolqarıstan voleybolçuları 25:21 hesabı ilə qalib gəliblər. İkinci setdə Rusiya təmsilçisi hesabı bərabərləşdirməyə nail olub - 25:20. Bolqarıstan təmsilçisi rəqibin güclü müqavimətinə baxmayaraq, üçüncü setdə qalib gələrək hesabda yenidən irəli çıxmağı bacarıb - 25:23. Görüşün dördüncü setində bolqarıstanlı voleybolçular qələbəyə yaxın olsalar da, üstünlüyü sona qədər qoruyub saxlaya bilməyiblər. Rusiya voleybolçuları əzmkarlıq göstərərək seti qələbə ilə başa vurublar - 25:21. Matçın qalibi taybrekdə müəyyənləşib və Rusiya millisi 15:13 hesabı ilə qələbə qazanıb. Beləliklə, ümumi hesabda 3:2 qalib gələrək xallarını sayını 7-yə çatdıran Rusiya millisi qrup lideri kimi dörddəbir finala birbaşa vəsiqəni təmin edib.



# Patrik Riçard: Azərbaycanda qadın voleybolu sürətlə inkişaf edir

Azərbaycanda idman, xüsusən də qadın voleybolu sürətlə inkişaf edir. Mən Azərbaycanda səkkiz dəfə olmuşam və hər səfərimdə böyük inkişafın şahidi olmuşam. Bu sözləri AZƏRTAC-a müsahibəsində beynəlxalq dərəcəli hakim, qadınlar arasında Avropa çempionatının hakimi Patrik Riçard söyləyib. O deyib: "Azərbaycanda idmana böyük maraq var. Bölgələrdə idmanı inkişaf etdirmək üçün yeni Olimpiya mərkəzləri, idman qurğuları tikilib. Mən Bakıda və Qubada bir neçə oyuna hakimlik etmişəm. Azərbaycan millisinin kapitanı Faiq Qarayev ilə yaxın dostluq münasibətimiz var. O, ölkənizdə voleybolun inkişafı üçün çox çalışır. Çox yaxşı haldır ki, Prezident İlham Əliyev də ölkənizdə idmanın inkişafına böyük diqqət yetirir. Bunun nəticəsidir ki, Azərbaycanda idman, xüsusən də qadın voleybolu çox sürətlə inkişaf edir. Mən bu çempionatda Azərbaycanın qadın voleybolçularının layiqli yer tutacaqlarına inanıram". Patrik Riçard Gürcüstanda çempionatın bir qrupunun oyunlarının təşkilində Azərbaycanın rolunu yüksək qiymətləndirib: "Azərbaycan artıq beynəlxalq yarışların təşkilində böyük təcrübəyə malikdir. Bilirəm ki, Bakıda oyunlar yüksək səviyyədə təşkil olunub. Azərbaycan Gürcüstana da yaxından kömək edib. Bu, Azərbaycanın dostu kimi məni çox sevindirir".

# "Qarabağ" - "Roma" matçını portuqaliyalı hakimlər briqadası idarə edəcək

Futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsinin ikinci turunda "C" qrupunda yer alan Ağdamın "Qarabağ" komandası ilə İtaliyanın "Roma" klubu arasında keçiriləcək oyunu portuqaliyalı hakimlər briqadası idarə edəcək. UEFA-nın saytında yer alan xəbərə görə, sentyabrın 27-də Bakı Olimpiya Stadionunda oynanılacaq görüşün baş hakimi Artur Dias olacaq. Ona həmyerliləri - yan xətt hakimləri Rui Tavares və Paulo Soares kömək edəcəklər. Dördüncü hakim funksiyasını Bruno Rodriges yerinə yetirəcək. Matçın hakim-inspektoru Haim Yakov (İsrail), UEFA nümayəndəsi estoniyalı Oleq Xarlamovdur. Bu qrupun digər oyununda "Atletiko Madrid" klubu "Çelsi"ni qəbul edəcək.

# "Qarabağ"-"Roma" oyunu ilə əlaqədar təhlükəsizlik tədbirləri gücləndiriləcək

Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsi sürücülərin və nəqliyyat vasitələri sahiblərinin nəzərinə çatdırır ki, sentyabrın 27-də keçiriləcək "Qarabağ" - "Roma" oyunu ilə əlaqədar Bakı Olimpiya Stadionunun ətrafında təhlükəsizlik tədbirləri gücləndiriləcək. İdarədən AZƏRTAC-a bildiriblər ki, həmin gün futbol matçını izləmək üçün xeyli sayda azarkeşin gələcəyi nəzərə alınaraq, şəxsi avtomobillər stadionun ərazisinə buraxılmayacaq. Azarkeşlərin Bakı Olimpiya Stadionuna rahat çatmaları üçün alternativ olaraq metronun "Gənclik" və "Qara Qarayev" stansiyalarının yaxınlığından həmin arena istiqamətində xüsusi avtobuslar pulsuz xidmət göstərəcəklər. Buna görə də stadionun ətrafında süni sıxlığın, tıxacın, yol-nəqliyyat hadisələrinin baş verməməsi üçün azarkeşlərdən Bakı Olimpiya Stadionuna ictimai nəqliyyatdan istifadə edərək gəlmələri xahiş olunur.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**